46_27 IYUl-QARA.qxd 12/26/2024 10:36 PM Page 1

UNİKAL

№48 (2230) 27 dekabr 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az



# Təyyarəmiz Rusiyadan vurulub: Qəsd, yoxsa növbəti müəmma...



Səh.9

# Teymur Musayev fiaskosu

*Yola salmaq üzrə olduğumuz həftə hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən Səhiyyə Nazirliyində əməliyyat həyata keçirildiyi barədə məlumat yayılıb. Bildirilib ki, əməliyyat zamanı saxlanılanlar var. O da bildirilib ki, əməliyyat ölkədə geniş rezonans doğuran saxta plastik cərrahlarla bağlı məsələ ilə əlaqədardır. Qeyd edək ki, plastik cərrahlara saxta sertifikatların verilməsi ilə bağlı məsələdə Səhiyyə Nazirliyinin yüksəkvəzifəli məmurlarının - nazir müavini İlqar Qasımov və İnsan resursları, elm və təhsil şöbəsinin müdiri Səidə Rüstəmovanın adı hallanırdı. Hələlik sözügedən əməliyyat və onun təfərrüatları barədə rəsmi açıqlama verilməyib. Lakin belə bir əməliyyatın keçirilməsi sürpriz də deyil. Səbəb hələ Oqtay Şiraliyevin başçılıq etdiyi dövrdə rüşvət və korrupsiyanın dərin kök saldığı Səhiyyə Nazirliyindəki rəhbər dəyişikliyindən sonra da eyni mənzərənin davam...*

Səh.5

## “Sosial şəbəkələrdə Azərbaycan əleyhinə qarayaxma kampaniyası aparırlar”



*Milli Məclisin Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov ”Unikal”a müsahibə verib. O, sosial şəbəkələrdə əxlaqsızlığı təbliğ edən tiktokerlərin həbs olunmasından, sosial şəbəkələrlə bağlı ayrıca qanun layihəsinin qəbul olunub-olunmayacağından, qarşıdan gələn bələdiyyə...*

Səh.4

## Yaralı vətəndaşlarımız Azərbaycana gətirildi



*“Azərbaycan Hava Yolları” aviaşirkətinin J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən “Embraer 190” təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində yaralanan 12 Azərbaycan vətəndaşı ölkəyə gətirilib. ”Unikal” xəbər verir ki, vəziyyəti qənaətbəxş olan...*

Səh.2

## 2024-cü ildə Azərbaycanın xarici siyasəti nələrlə yadda qaldı?



*Siyasi şərhçi hesab edir ki, bütövlükdə 2024-cü il Azərbaycanın xarici siyasəti münaqişələrin artdığı və eskalasiyaların genişmiqyaslı xarakter aldığı beynəlxalq dinamikada uğurlu nəticələrin əldə edildiyini göstərir. “2024-cü ildə Azərbaycanın xarici siyasəti ikitərəfli və çoxtərəfli münasibətlər prizmasından...*

Səh.9

46_27 IYUI-QARA.qxd 12/26/2024 10:36 PM Page 2



# "Ürəyimin bu qədər ağrıyacağını bilməzdim" - Brilliant Dadaşova



***Xəbər verdiyimiz kimi, ötən gün təyyarə qəzasında həlak olanlardan biri də stüardessa Hökümə Əliyevadır.***

Xalq artisti Brilliant Dadaşova sosial media hesabında onunla bağlı paylaşım edib.

"Bu musiqini ifa edərkən ürəyimin bugünkü qədər ağrıyacağını bilməzdimg" deyə, sənətçi "Əlvida, sevgilim" adlı ifası ilə birgə etdiyi paylaşımında yazıb.

# "Təyyarədə dostumun oğlu da olub" - Roza Zərgərli

***Müğənni Roza Zərgərli Qazaxıstanın qərb bölgəsində planlaşdırdığı konsertinin baş tutmayacağını bildirib.***

"Unikal" xəbər verir ki, bu barədə Qazaxıstan mətbuatı yazıb.

"Təyyarə qəzasında tapılan soydaşlarımın yaxınlarına başsağlığı verirəm. Qazaxıstan bölgəsinə konsert turum başlayacaqdı. Amma mən hər şeydən imtina etdim. Atıraudakı konsertimi də ləğv etdim... Təyyarədə dostumun oğlu da



olub. Həmyerlilərimə və qazax, rus, qırğız qardaşlarıma başsağlığı verirəm. Düşünürəm ki, qərarımı başa düşəcəksiniz. Mənə dəstək olan bütün dinləyicilərə təşəkkürümü bildirirəm", - deyə müğənni bildirib.

Qeyd edək ki, bir müddət əvvəl Aktauda baş verən təyyarə qəzasında həlak olan qazaxlar arasında notarius Qauhar Şaymerdenova və oğlunun da olduğu barədə məlumat yayılmışdı.

***Seymur Əli***

# Aysel səhnəyə qayıdır



***Azərbaycanın "Avroviziya-2009" təmsilçisi, tanınmış müğənni Aysel Teymurzadə səhnəyə qayıdır.***

"Qafqazinfo" xəbər verir ki, ailə həyatı qurduqdan sonra fəaliyyətinə ara verən müğənni son zamanlar paylaşımları ilə diqqət çəkir. Sosial şəbəkə hesabında aktivləşən müğənni kiçik məclislərdə etdiyi çıxışların videolarını da izləyiciləri ilə bölüşür.

Artıq Aysel Yeni il tədbirlərinə də qatılır. O, "İTV"nin yayımladığı tədbirin anonsunda hətta "Bu gecə səhnəyə dönənlər" kimi təqdim olunub.

Xatırladaq ki, bir neçə ay öncə Aysel Teymurzadənin həyat yoldaşı - Azərbaycan Dövlət Filarmoniyasının direktoru, Xalq artisti Murad Adıgözəlzadədən boşanması ilə bağlı iddialar yayılmışdı. Daha sonra müğənni həyat yoldaşı ilə birlikdə görüntüləndiyi videonu paylaşaraq söz-söhbətə son qoymuşdu.

Bu xəbərlərin yaranmasına səbəb isə Murad Adıgözəlzadənin işçisi olan xanımla səmimi münasibətinin olması, hətta Adıgözəlzadənin onunla evlənəcəyini bildirməsi iddiaları idi. Filarmoniyanın direktoru bu haqda danışmasa da, məsələdə adı hallanan qadın iddiaları təkzib etmişdi. Məlumatların mədəniyyət ocağının imicinə zərər yetirməsinə baxmayaraq, xəbərlər haqda rəsmi reaksiya da verilməyib.

Qeyd edək ki, Aysel Teymurzadə və Murad Adıgözəlzadə 2012-ci ildə ailə həyatı qurub. Cütlüyün 3 övladı var.



# Balaəli məhkəməyə verildi

***Tanınmış meyxanaçı Balaəli Rzayevin sürücülük hüququ məhdudlaşdırıla bilər.***

"Unikal" bildirir ki, meyxanaçı barədə İnzibati Xətalar Məcəlləsinin 529.3-cü maddəsi ilə inzibati protokol tərtib edilib.

Bu maddəyə görə, Balaəli yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların törədilməsinə görə inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarı qanuni qüvvəyə mindiyi gündən 3 ay müddətində qanunla müəyyən edilmiş əsaslar olmadan icra etməyib.

İşə Sabunçu rayon Məhkəməsində hakim Günel Məmmədovanın sədrliyi ilə baxılacaq.

Qeyd edək ki, protokol təsdiq edilərsə, meyxanaçının sürücülük hüququ 6 aydan 1 ilə qədər məhdudlaşdırılacaq. /Modern.az

# Dilarə Əliyevanın sabahkı konserti təxirə düşdü

***Əməkdar artist Dilarə Əliyevanın sabah Azərbaycan Dövlət Akademik Musiqili Teatrında planlaşdırılan stand-up konserti Aktauda baş vermiş təyyarə qəzası səbəbindən təxirə salınıb.***



Bu barədə sənətçi sosial şəbəkədə məlumat yayıb. Konsert 4 yanvar tarixinə ertələnib.

Qeyd edək ki, dekabrın 26-sı Azərbaycanda matəm elan edilib.

# Daha iki "TikToker" həbs edildi

***Polisin sosial şəbəkələrdə əxlaqsızlığın təbliğinə qarşı keçirdiyi əməliyyatla saxlanılan tiktoker Vüqar Zeynalzadə (Vaqa) və Nuh Məmmədov da həbs edilib.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, əvvəllər inzibati qaydada həbs edilmiş tiktokerlər bu dəfə cinayət məsuliyyətində cəlb ediliblər.

Nərimanov Rayon Məhkəməsinin qərarı ilə "Vaqa" və Nuh barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, "TikTok" əməliyyatının istintaqı Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsində aparılır. Ötən gün aparıcı Azər Zahid barəsində də cinayət ittihamı ilə həbs qərarı verilib.



46_27 IYUI-QARA.qxd 12/26/2024 10:36 PM Page 3



# Əli Əsədov bu qaydanı təsdiq etdi



***Nazirlər Kabineti sazişlərin rəqabət qanunvericiliyinə uyğunluğunun təsdiqlənməsi qaydalarını təsdiq edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Bu qaydalar Rəqabət Məcəlləsinə uyğun hazırlanıb və sazişlərin rəqabət qanunvericiliyinə uyğun olub-olmamasını müəyyən etmək üçün müraciət və qərar prosesini tənzimləyir.

Saziş iştirakçılarından hər hansı biri bağlanılmış sazişin istisna edilməsi üçün rəqabət orqanına könüllü şəkildə yazılı müraciət edə bilər. Sazişin predmeti ilə bağlı iş qaldırıldıqda, saziş iştirakçıları bu barədə bildirişdən sonra 30 gün ərzində müraciət edə bilərlər. Əgər müraciət qaydaların 2.2-ci bəndinin tələblərinə uyğun gəlmirsə, vəsatət rəqabət komissiyasının qərarı ilə qəbul edilir.

Müraciətdə saziş iştirakçıları və onların hüquqi ünvanları, sazişin predmeti, mahiyyəti, texniki və iqtisadi xüsusiyyətləri, davametmə müddəti və tətbiq olunduğu coğrafi ərazi kimi məlumatlar əks olunmalıdır.

Qaydalara əsasən müraciətlərin qiymətləndirilməsi 30 gün ərzində başa çatır. Xüsusi hallar zamanı baxılma müddəti əlavə 30 gün uzadıla bilər. Bu barədə məlumat müraciətçilərə 5 iş günü ərzində verilir.

Müraciətin qiymətləndirilməsi nəticəsində rəqabət orqanı və ya komissiya sazişin istisna edilməsi və ya edilməməsi barədə yekun qərar qəbul edir. Qərar qəbul edilən şərtlər yerinə yetirildiyi müddətdə qüvvədə olur.

# "Həlak olanların bəziləri tanınmaz vəziyyətə düşüb" - Baş konsul



***"Azərbaycan Hava Yolları"nın təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində həlak olan şəxslərin cəsədləri tanınmaz vəziyyətə olduğu üçün onların kimliyinin müəyyənləşdirilməsi prosesi aparılır.***

"Unikal" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Azərbaycanın Aktaudakı baş konsulu Ayxan Süleymanlı bildirib.

O qeyd edib ki, cəsədlərin tanınması prosesi bir qədər zaman alacaq. Həlak olanların kimliyi müəyyənləşdikdən sonra ölkələrinə göndəriləcək. Cəsədlərin kimliyinin müəyyənləşdirilməsi üçün Azərbaycandan Aktauya gələn Səhiyyə Nazirliyinin və Baş Prokurorluğunun ekspert qrupu araşdırma aparır. Cəsədlərin tanınması üçün yaxınlarının DNK analizinə ehtiyac olacaq. Həlak olan 26 Azərbaycan vətəndaşının 3-ü tanınan haldadır.

Bundan başqa A.Süleymanlı qeyd edib ki, hadisə baş verən andan etibarən Qazaxıstanın müvafiq rəsmi qurumları operativ və peşəkar formada fəaliyyət göstərir. Yaralıların təcili və təhlükəsiz xəstəxanaya çatdırılmasının ölüm hallarını minimuma saldığını vurğulayan Baş konsul əlavə edib: "Qazax xalqı da bu hadisəyə biganə yanaşmır. İnsanlar yaralılara könüllü qan verirlər. Bundan başqa konsulluq qarşısına gül dəstələrinin düzülməsi yerli əhalinin öz təşəbbüsüdür".

Ayxan Süleymanlı bildirib ki, hadisə baş verən andan Aktaudakı Türkiyə, İran, Özbəkistan və Türkmənistanın baş konsulları Azərbaycana dəstək nümayiş etdirirlər.

# Hacıbala Abutalıbovun Türkiyədəki iki obyekti bağlandı

## Sabiq merin oğluna məxsus şirkətlər böhranla üzləşib?

***Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Hacıbala Abutalıbovun oğlu İsrafil Abutalıbovun Türkiyədə açdığı iki obyekt fəaliyyətini dayandırıb. Bu barədə "Unikal" məlumatlı mənbələrə istinadən bildirir.***

Qeyd edək ki, oğul Abutalıbov qardaş ölkədə əsasən bahalı hotel-restoran biznesi və qiymətli zinət əşyalarının satışı ilə məşğuldur. Həmin hotel-restoranlar İstanbulun ən bahalı və tarixi yerlərindən biri sayılan Sultanəhməd meydanında yerləşirdi. Hətta bu hotel və restoranların üzlüklərində qızıldan da istifadə edildiyinə dair iddialar var.

Sözügedən obyektlər aşağıdakılardır:

- İstanbulun mərkəzində 5 ulduzlu "Ajwa Hotel Sultanahmet" oteli;
- "Zeferan" restoranı;
- "Sukkari Patisserie" şirniyyat evi,
- İstanbulda yerləşən və dünyanın ən köhnə, böyük qapalı ticarət yeri sayılan "Qapalı çarşı"da qızıl mağazaları və sairə.

Bundan başqa, İsrafil Abutalıbovla qardaşı Orxanın İngiltərə və Azərbaycanla yanaşı Türkiyədə əmlak və restoran biznesinə yatırımlarının on milyonlarla dollarla ölçüldüyü deyilirdi.

Xatırladaq ki, İsrafil Abutalıbov ixtisasca hüquqşünasdır. Bakıda müxtəlif qurumlarda, o cümlədən Konstitusiya Məhkəməsinin sədrinin köməkçisi vəzifəsində çalışıb. O, 2007-ci ildə Londonda biznes aləminə girişib, 29 yaşında ikən burada "Androush Shtriker Limited" və "Hamilton Consultancy & Advisory Limited" şirkətlərinin direktoru olub. Həmin şirkətlər çoxdan fəaliyyətini dayandırıb. 2016-cı ildə İsrafil ikinci dəfə Londonda biznes macərasına atılıb və "Sidmouth Investment Limited" şirkətini qurub. Növbəti il burada təsis etdiyi "Kenwood AM Ltd" şirkəti vasitəsilə "Rock Gate Mews Limited" şirkətinə sahib olub. Sonuncu şirkətin ingilis sahibləri onu banka ipoteka borcuna görə İ.Abutalıbova satmalı olmuşdular.

Oğul Abutalıbovun Türkiyədə əmlak bazarına girişməsi isə 2013-cü ildən başlayıb. O və qardaşı burada çoxlu sayda şirkətə sahibdirlər. Şirkətlərin və mülklərin əsas hissəsi, yuxarıda da vurğuladığımız kimi, İstanbulun tarixi mərkəzlərindən birində - Sultanəhməddədir. Həmin şirkətlərə milyonlarla manatlıq sərmayə qoyublar. 2015-ci ilin iyul ayının 27-də İ.Abutalıbov Türkiyə vətəndaşlığı alıb və soyadını dəyişdirib. Hazırda o "İsrafil Abutalıb" kimi tanınır.

Oğul Abutalıbovların Türkiyədə yaratdıqları şirkətlərlə bağlı bir müddət öncə yerli media bir məqama diqqət çəkmişdi. Bildirilirdi ki, həmin şirkətlərin ilk təsisçiləri qismində sonradan bu şirkətlərdə idarəedici olacaq şəxslər iştirak ediblər. Digər məqam isə onların satın aldıqları və yaşı 100-150 il olan evləri sökmədikləri, əksinə, neçəyə başa gələcəyini düşünmədən bəzən ilkin görkəmindən də gözəl bərpa etmələridir.

Əldə etdiyimiz məlumata görə, Abutalıbovların qardaş ölkədəki obyektlərdən ikisi fəaliyyətini dayandırıb. Bunlardan biri "Zeferan" restoranı, digəri isə "Sukkari Patisserie" şirniyyat evidir. Ümumiyyətlə isə son vaxtlar Türkiyədə müşahidə olunan iqtisadi çətinliklər, o cümlədən türk lirəsinin xeyli ucuzlaşması fonunda Abutalıbov qardaşlarına məxsus şirkətlərin də fəaliyyətində durğunluq müşahidə edildiyinə dair iddialar var.



Onu da deyək ki, İstanbulun Kadırqa Limanı məhəlləsindəki "Verni Art Salon" verniartsalon.com adlı muzeyin də oğul Abutalıbovlara məxsus olduğu barədə vaxtilə məlumat yayılmışdı. Kiçik Ayasofya Məscidi ilə Sokullu Mehmet Paşa Məscidi arasında qərarlaşan, bərpa işlərindən sonra bu ilin yayında istifadəyə verilən bu üçmərtəbəli binadan gəmiqayırma ustaları Osmanlı dövründə anbar kimi istifadə edirmişlər. Bildirilirdi ki, Abutalıbovlar buraya - 600 m? sahəni tutan muzeyə - Türkiyənin hər yerindən əntiq əşyalar, mebellər, Azərbaycanda əllə toxunmuş ipək və pun xalça kolleksiyaları gətirib nümayiş etdirirlər. Maraqlı burasıdır ki, muzeyə məxsus yuxarıdakı internet ünvanı da hazırda işləmir. Sayta daxil olduqda onun hazırlıq mərhələsində olduğu barədə elan qarşıya çıxır. Halbuki sözügedən internet resursu bir müddət əvvəl normal şəkildə fəaliyyət göstərirdi.

Oğul Abutalıbovlara məxsus "Zeytin Gayrimankul Yatırım Otelcilik Turizm ve Ticaret A.Ş."nin də fəlaiyyətini dayandırmaq üzrə olduğu bildirilir. Bu şirkət 2013-cü ilin mayında İstanbulda, Ziyal Plazada yaradılıb. İki ay sonra İ.Abutalıbovun xanımı Nailə Əzimova şirkəti Zeki Kurtdan satın alıb və kapitalını 100 mindən 315 min lirəyə qaldırıb. Nailə Əzimova 2015-ci ilin iyul ayında Azərbaycan vətəndaşlığını Türkiyə vətəndaşlığına dəyişib və həyat yoldaşı İsrafil Abutalıbın soyadını qəbul edib. Növbəti il şirkət Fatih İstanbul, KasapOsman küçəsi, 16 nömrəli evə köçürülüb. Buradakı torpaq sahəsi üzərində kiçik bir mülk var. 2017-ci ildə isə adı çəkilən şirkətin kapitalı 2 milyon lirəyə çatdırılıb. Hazırda isə onun demək olar ki, fəaliyyətsiz olduğu iddia edilir.

Bir sözlə, sabiq merin övladlarına məxsus Türkiyədəki şirkətlərin əksəriyyəti üçün işlər qaydasında getmir. Hətta onların bir çoxu ya bağlanıb, ya da belə davam edərsə, bağlanmaq riski ilə üzləşib.

**Toğrul Əliyev**

46_27 IYUI-QARA.qxd 12/26/2024 10:36 PM Page 4



# 2024-cü ildə Azərbaycanın xarici siyasəti nələrlə yadda qaldı?

Siyasi şərhçi hesab edir ki, bütövlükdə 2024-cü il Azərbaycanın xarici siyasəti münaqişələrin artdığı və eskalasiyaların genişmiqyaslı xarakter aldığı beynəlxalq dinamikada uğurlu nəticələrin əldə edildiyini göstərir

***"2024-cü ildə Azərbaycanın xarici siyasəti ikitərəfli və çoxtərəfli münasibətlər prizmasından əlamətdar vektorlarla yadda qaldı".***

Bu fikirləri siyasi şərhçi Aqşin Kərimov səsləndirib. O bildirib ki, Azərbaycanın Qərblə münasibətlərində siyasi gərginliklər olsa da, ümumilikdə Bakı-NATO əlaqələrinin, Bakı-Böyük Britaniya tərəfdaşlığının uğurla idarə edildiyi qənaətini bölüşmək olar: "Azərbaycan strateji yanaşmalarının güc vitrinlərinə münasibətdə digər uğurlu nümunələrini da davam etdirdi. Belə ki, Azərbaycan Rusiya ilə əlaqələr dinamikasında müsbət məqamları saxlamağa nail oldu. Bundan başqa diqqətəlayiq hadisələrdən biri Azərbaycan və Çin liderlərinin Strateji tərəfdaşlığın qurulması haqqında Bəyannaməyə imza atmaları idi. Bu sənəd, Azərbaycanın qarşısında duran kritik məsələlərdən birini - gələcək dünya düzənindəki adekvat manevr təqdimatını - müəyyənləşdirən faktorlardan biri oldu".



A.Kərimov onu da bildirib ki, 2024-cü ildə Ermənistanla sülh gündəmində Azərbaycanın tələb və şərtlərinin parlaqlığı bir daha hiss olundu. Onun sözlərinə görə, ən cazibəli hadisə Qazaxın işğal altında saxlanılan 7 kəndindən 4-nün Azərbaycana qaytarılmasına nail olmaq idi: "Ümumilikdə sülh proqramında başqa müsbət dinamikalar, o cümlədən sülh müqaviləsi üçün qarşılıqlı təkliflər mübadiləsinin həyata keçirilməsi proseslərin praqmatik xüsusiyyətlərini göstərir. Bununla belə, Ermənistanın qeyri-müəyyən vektorunu davam etdirməsi, Azərbaycana qarşı silahlanma cəbhəsi yaratmaq cəhdləri də sülh gündəminin müşayiətində baş verir. Bu, regionda Ermənistan mərkəzli risklərin qaldığını və gələcəkdə arta biləcəyini, nəticədə Azərbaycanın regional təhlükəsizlik boşluqlarını öz maraqları zəminində dolduracağı proqnozlarını çıxarmağa imkan verir".

COP29-un keçirilməsinə gəldikdə isə şərhçi bildirib ki, Azərbaycanın xarici siyasət təsirlərinə verdiyi imkanlara gəlincə, deyə bilərik ki, Bakı bununla beynəlxalq ictimaiyyətə ən güclü fikirlər verə biləcəyini sübut etdi: "COP29-da iqlim maliyyəsi üzrə 300 milyard dollar ayrılmasına razılıq əldə edilməsi düzün və ədalətli beynəlxalq mexanizmlərin yaradılması üçün alternativ baza yaratdı. COP29 ümumilikdə Bakıda əldə edilmiş razılıqlar çərçivəsində yeni qlobal hədəflər təqdim edir. Bütövlükdə 2024-cü il Azərbaycanın xarici siyasəti münaqişələrin artdığı və eskalasiyaların genişmiqyaslı xarakter aldığı beynəlxalq dinamikada uğurlu nəticələrin əldə edildiyini göstərir".

# Pensiya və maaş artımlarını bu tarixdən ala biləcəyik

***Ötən gün Prezidenti İlham Əliyev "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Sərəncam imzalayıb.***

Sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılacaq.

Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub.

Yeni sosial islahat paketində digər sosial ödənişlərin artırılması da yer alıb. Sərəncamla Nazirlər Kabineti gələn il sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini 3 ay müddətində ölkə Prezidentinə təqdim edəcək.

Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, builki paketin 3 milyon vətəndaşımızı əhatə edəcəyini nəzərə alsaq, bu, əvvəlki paketlərlə müqayisədə daha çox vətəndaşımızın sosial artımlardan faydalanması deməkdir:

"Eyni zamanda minimum əməkhaqqının artırılması 700 min vətən-



daşımızın maaşlarına təsir göstərəcək. Bu təbii ki, sadəcə minimum səviyyədə əməkhaqqı alan vətəndaşlarımızın deyil, eyni zamanda vahid tarif cədvəlinə uyğun olaraq əməkhaqqı alan vətəndaşlarımızın maaşlarında artımlarla müşahidə olunacaq. Minimum pensiya ilə yanaşı həm də gələn aydan əmək pensiyalarının indeksləşdirilərək artırılması həyata keçiriləcək. Bu əmək pensiyası alan bütün vətəndaşlarımıza şamilolunacaq. Bu o deməkdir ki, indeksləşdirmə nəticəsində pensiya artımları 1 milyon 100 min vətəndaşımızı əhatə edəcək və həmin vətəndaşların pensiyalarında artımlar müşahidə olunacaq".

Millət vəkili bildirib ki, minimum əməkhaqqı və minimum pensiya üzrə artım yanvar ayından etibarən tətbiq olunacaq:

"Yeni gələn aydan minimum əməkhaqqı və minimum pensiya artırılır. Əmək pensiyalarının indeksləşdirilməsi da yanvar ayında nəzərdə tutulacaq. Amma əmək pensiyaları ölkə üzrə orta aylıq nominal əmək haqqının illik artım tempinə uyğun indeksləşdirildiyi və 2024-cü il üçün yekun rəqəm fevralın əvvəlində elan olunduğu üçün vətəndaşlarımız əmək pensiyalarının indeksləşdirmə nəticəsində yanvar ayının artımlarını fevral ayının artımı ilə birlikdə alacaqlar".

V.Bayramov sonda qeyd edib ki, müəllimlərin və eləcə də həkimlərin əməkhaqqları vahid tarif cədvəlinə uyğun deyil:

"Bu sektorlarda əməkhaqqı artımları müəyyənləşdirilən və tətbiq edilən keyfiyyət meyarlarına əsasən həyata keçirilir. Ona görə də təhsil sektorunda vahid tarif cədvəlinə uyğun əməkhaqqı alan daha çox texniki işçilərin maaşlarına minimum əməkhaqqının artırılması təsir göstərir. Amma müəllimlərimizin əməkhaqqı sertifikasiya nəticəsində həyata keçirilən artımlardır".



## Konstitusiya Məhkəməsi Bakı Apellyasiya Məhkəməsinin müraciətinə baxıb

***Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Palatasının növbəti iclası keçirilib.***

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən verilən məlumata görə, iclasda Azərbaycan Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 232-ci maddəsinin şərh edilməsinə dair Bakı Apellyasiya Məhkəməsinin müraciətinə baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib. Müraciətə mahiyyəti üzrə tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun 2025-ci il yanvarın 23-nə təyin edilmiş iclasında baxılacaq.

## Azərbaycan və Gürcüstan XİN başçıları arasında telefon danışığı olub

***"Gürcüstan hər zaman Azərbaycanın yanındadır". Azərbaycan Xarici İşlər Nazirliyindən verilən məlumata görə, bunu Gürcüstan xarici işlər naziri Maka Botçorişvili Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla telefon danışığı zamanı deyib.***

O, "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin Aktauda qəzaya uğraması nəticəsində həlak olanların ailə üzvlərinə başsağlığı diləklərini çatdırıb, dost Azərbaycan xalqına səbr diləyib. Bu faciəvi gündə Gürcüstanın hər zaman Azərbaycanın yanında olduğu vurğulanıb.

Ceyhun Bayramov baş sağlığına, ölkəmiz və xalqımız üçün ağır bir gündə göstərilən dəstəyə görə dost Gürcüstan tərəfinə təşəkkür edib.

## Xocalıya növbəti köç olacaq - 119 nəfər doğma yurduna qayıdır

***Xocalı rayonunun Ballıca kəndinə ikinci köç olacaq.***

"Unikal" xəbər verir ki, köç sabah - dekabrın 27-də Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində baş tutacaq. Sabah Ballıca kəndinə 21 ailənin yəni 119 nəfərin köçürülməsi nəzərdə tutulur. Keçmiş məcburi köçkünlər 32 ildən sonra ilk dəfə olaraq hər iki bayramı öz doğma torpaqlarında qeyd edəcəklər.

Böyük qayıdışla bağlı kənddə bütün infrastruktur yenidən qurulub. Kənd elektrik enerjisi, içməli su, təbii qaz və sürətli internetlə təmin olunub.

Ölkənin müxtəlif ərazilərində çətin şəraitdə müvəqqəti məskunlaşan keçmiş məcburi köçkünlər kəndə yola salınacaq.

Qeyd edək ki, Ballıca kəndi 1992-ci ildə Ermənistan ordusu tərəfindən işğal edilib. Kənd 19-20 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatı nəticəsində azad olunub.

Xatırladaq ki, artıq 27 ailə - 152 nəfər Xocalı rayonunun Ballıca kəndinə köçürülüb.

# Təyyarəmiz Rusiyadan vurulub: Qəsd, yoxsa növbəti müəmma...

***"İlkin araşdırmaların nəticələrinə əsasən, Bakı-Qroznı marşrutu üzrə hərəkət edən "Azərbaycan Hava Yolları"nın təyyarəsi Qroznı şəhərinə yaxınlaşarkən Rusiyanın "Pantsir-S" hava hücumundan müdafiə (HHM) sistemi tərəfindən hücuma məruz qalıb".***

"Unikal" xəbər verir ki, bu barədə Caliber.az redaksiyası etibarlı hökumət mənbələrindən məlumat əldə edib.

Bildirilir ki, Rusiya tərəfinin radioelektron mübarizə (REM) sistemlərindən istifadəsi nəticəsində Azərbaycan təyyarəsinin rabitə sistemi tamamilə iflic olub. Məhz bu səbəbdən təyyarə Rusiya hava məkanında radarlardan itib və siqnal yalnız Xəzər dənizi akvatoriyası rayonunda bərpa edilib.

Qeyd edək ki, Rusiya mənbələrinə görə, Çeçenistan ərazisi üzərində uçuş zamanı Rusiya HHM-i Ukrayna PUA-larını vurmağa çalışıb. Belə ki, Çeçenistan Respublikası Təhlükəsizlik Şurasının sədri Həmzət Kadırov dekabrın 25-i səhər saatlarında Qroznıya pi-



lotsuz təyyarələrlə hücum faktını təsdiqləyib və xəsarət alanların, həmçinin dağıntıların olmadığını qeyd edib. Bu halda Rusiya tərəfi öz hava məkanını mülki təyyarələr üçün bağlamalı idi, lakin bu edilməyib.

Çeçenistan üzərində uçuşsuz zonanın elan edilməməsinin səbəbi böyük sualdır.

Məlum olduğu kimi, Qroznı şəhərinin hava limanı təyyarənin enişinə icazə verməyib. Bundan əlavə, təyyarəmizə Mahaçqala və Mineralnıye Vodı hava limanlarına enmək üçün də icazə verilməyib.

HHM atəşinə və REM sistemlərinin təsirinə məruz qalmış dezorientasiya olunmuş ekipaj Qazaxıstanın Aktau şəhərinə yönləndirilib.

"Güman etmək olar ki, bu tövsiyə bir məqsədlə verilib: təyyarə Xəzər dənizinə düşsün, bütün şahidlər həlak olsun və təyyarə batsın. Lakin bu, qeyd edək ki, bizim ehtimalımızdır", - deyə nəşrdə vurğulanıb.

Bildirilir ki, Rusiya KİV-lərində yayılan alternativ versiyalar ictimai rəyi çaşdırmaq məqsədi daşıyan məqsədyönlü dezinformasiyadır. Təyyarənin salonundan olan video görüntülər iki sərnişinin qəlpələrdən yaralandığını göstərir. Bütün şahid ifadələri, o cümlədən təyyarə xaricində eşidilən partlayışlarla bağlı ifadələr HHM-in işinə dəlalət edir.

Araşdırmada iştirak edən Azərbaycan tərəfi üçün vəziyyət tamamilə aydındır. Heç kim bunun qəsdən edildiyini iddia etmir. Lakin müəyyən edilmiş faktları nəzərə alaraq, Bakı Rusiya tərəfinin Azərbaycan təyyarəsinin vurulmasını etiraf etməsini, Azərbaycan xalqından rəsmi üzr istəməsini və bütün günahkarların məsuliyyətə cəlb olunacağı tam araşdırma aparmasını gözləyir.

# "Allaha dua edirdim ki, oğlum yaralı olsun"

***"Allaha dua edirdim ki, oğlum yaralı olsun". Bu fikirləri "Unikal"a açıqlamasında ötən gün qəzaya düşən təyyarənin sərnişinlərindən biri olan, talehindən xəbər alınmayan Şəmkir rayonun Yuxarı Seyfəli kənd sakini 1998-ci il təvəllüdlü Ramin İbrahimovun atası Mahir İbrahimov deyib.***

"Oğlumu dekabrın 24-ü axşam saatlarında Bakıya yola saldıq. Oğlum Qroznıyaya işləməyə gedirdi. Dünən səhər



anasına zəng edib k dedi ki, areportdadır. Sonra xəbər gəldi ki, oğlumun olduğu təyyarə Qazaxıstanda qəzaya düşüb. Hələ ki, oğlumdan bir xəbər yoxdur. Oğlum gedəndə özünə orada geyinməyi üçün isti paltarlar almışdı. Oğlum subay olub.

Qeyd edək ki, "Azərbaycan Hava Yolları" aviaşirkətinin J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsi Aktau şəhəri yazınlığında qəzaya uğraması nəticəsində vəfat edən sərnişinlərin və ekipaj üzvlərinin siyahısı açıqlanıb. Onların sırasında 1998-ci il təvəllüdlü Ramin İbrahimov da var.

***Tural Əhmədov***

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Baş nazirdən bağça müəllimləri ilə bağlı qərar

***Dövlət məktəbəqədər təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma qaydasında dəyişiklik edilib.***

"Unikal" Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Dəyişikliklə, Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin yerli bölmələri ilə yanaşı Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi də altsistemdə sertifikatlaşdırmada iştirak edəcək təhsilverənlərin qeydiyyatını aparacaq və həmin təhsilve-



rənlərin müəyyənləşdirilmiş vaxtda sertifikatlaşdırmada iştirakını təmin edəcəklər.

# Yaralı vətəndaşlarımız Azərbaycana gətirildi

***"Azərbaycan Hava Yolları" aviaşirkətinin J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində yaralanan 12 Azərbaycan vətəndaşı ölkəyə gətirilib.***



"Unikal" xəbər verir ki, vəziyyəti qənaətbəxş olan 7 nəfər adi reys, vəziyyəti orta ağır qiymətləndirilən 5 sərnişin isə ayrılmış həkim briqadasının müşayiəti altında Fövqəladə Hallar Nazirliyinin xüsusi təyyarəsi ilə gətirilib.

# Təyyarə qəzasında həlak olanların xatirəsi yad edilib

***Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olan sərnişinlər və ekipaj üzvlərinin xatirəsi anılıb.***

"Unikal" xəbər verir ki, bununla əlaqədar hava limanında quraşdırılmış lövhənin önünə gül dəstələri düzülüb.

Vətəndaşlar təyyarə qəzasında həlak olanları ehtiramla yad ediblər.

# Ölənlərin ailəsinə 40 min, yaralılara 20 min kompensasiya veriləcək

***AZAL bu şirkətə məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində həlak olanların hər birinin ailəsinə 40 min manat kompensasiya ödəyəcək.***

"Unikal" xəbər verir ki, "Azərbaycan Hava Yolları" QSC-nin Müşahidə Şurasının qərarı ilə dekabrın 25-də Qazaxıstanın Aktau şəhərində qəzaya uğramış "Azərbaycan Hava Yolları" Sərnişin Aviaşirkətinin J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsində olan və xəsarət alanların hər birinə 20.min manat, vəfat edənlərin hər birinin ailəsinə isə 40 min manat kompensasiya ödənilməsi müəyyən edilib.

Bununla yanaşı, bütün sərnişinlər Azərbaycan Respublikası qanunvericiliyinə və qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq tətbiq edilən müvafiq sığorta ödənişi alacaqlar.

# "Məni və yoldaşımı 5 saat yarım gömrükdə gözlətdilər" - Qəzada ölən şəxsin atası

***AZAL-ın təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində həyatını itirən Anar Babayevin atası Zöhrab Babayev jurnalistlərə açıqlama verib.***



"Unikal"ın məlumatına görə, o, hava limanında gömrük işçiləri tərəfindən lüzumsuz yerə gözlədildiyini bildirib: "Mən də, yoldaşım da 5 saat yarım ac vəziyyətdə gömrükdə gözləmişik. Soyuqda bizə işgəncə verdilər. Heç olmasa orada bir otaq yaradın ki, orada oturaq", - deyə Z.Babayev qeyd edib.

**ELAN**

Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsində 25 Dekabr 2009 cı il tarixdə , 100109A3 - 136 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmış "Gürcü yəhudilərinin Bakı" dini icmasına məxsus şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

# Ölkə rəhbərləri İlham Əliyevə başsağlığı verir

**Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Denis Bećiroviç Azərbaycan Prezidenti İlham Əliyevə başsağlığı məktubu ünvanlayıb.**

"Unikal" xəbər verir ki, məktubda deyilir: "Hörmətli cənab Prezident. Qazaxıstanın Aktau şəhəri yaxınlığında çoxlu sayda insanın həlak olduğu təyyarə qəzası ilə bağlı xəbər məni dərindən kədərləndirdi.

Bosniya və Herseqovina vətəndaşları adından və şəxsən öz adımdan Sizə, həlak olanların ailələrinə, Azərbaycan xalqına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzulayıram".

***

**Bosniya və Herseqovinanın Serb Respublikasının Prezidenti Milorad Dodikdən:**

yaralananların tezliklə sağalmalarını diləyirik. İnanıram ki, cəsur Azərbaycan xalqının dözümlülüyü və birliyi bu çətin dövrü dəf etməyə kömək edəcəkdir. Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm".

***

**Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömürəlıyevdən:**

"Zati-aliləri. "Azərbaycan Hava Yolları" aviaşirkətinin Bakı-Qroznı reysini həyata keçirən təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə bağlı xəbər məni dərindən kədərləndirdi. Çoxlu sayda insanın həyatına son qoymuş bu hadisə Azərbaycan üçün böyük itkidir.

Zati-alinizə və Azərbaycan xalqına, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayırıq. Sizin kədərinizi bölüşürük".

***

**İran Prezidenti Məsud Pezeşkian Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib.**

İran Prezidenti təyyarə qəzası nəticəsində insanların həlak olması ilə bağlı Azərbaycan Prezidentinə və həlak olanların ailə üzvlərinə başsağlığını çatdırıb, yaralananların tezliklə şəfa tapmasını diləyib.

Prezident İlham Əliyev göstərilən diqqətə və başsağlığına görə minnətdarlıq bildirib.

***

**Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib.**



Şavkat Mirziyoyev baş vermiş təyyarə qəzası ilə bağlı Azərbaycan Prezidentinə və həlak olanların yaxınlarına başsağlığını bildirib, yaralanan şəxslərin tezliklə sağalmalarını arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və başsağlığına görə minnətdarlıq edib.

***

**Avropa İttifaqının (Aİ) xarici əlaqələr təhlükəsizlik siyasəti üzrə mətbuat katibi Anuar Əl-Anuni Azərbaycan Hava Yollarına məxsus təyyarənin qəzaya uğraması ilə bağlı başsağlığı verib.**

O, bu barədə sosial şəbəkə hesabında paylaşım edib. "AZAL-a məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğramasından kədərləndik. Həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayırıq", - deyə o qeyd edib.

***

**Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazirin müavini, Prezident işləri naziri Şeyx Mansur bin Zayed Al Nəhyandan:**

"Möhtərəm cənab Prezident. "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanda qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı və yaralanması xəbəri bizi dərindən kədərləndirdi.

Bu faciəvi hadisə ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmalarını diləyirik".

***

**Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubayın Əmiri Şeyx Məhəmməd bin Rəşid Al Məktumdan:**

"Möhtərəm cənab Prezident. "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstan ərazisində qəzaya uğraması nəticəsində çoxsaylı insanın həlak olması və yaralanması xəbərini dərin kədər hissi ilə qarşıladıq.

Bu ağır itki ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verir, yaralananlara tezliklə şəfa tapmalarını arzulayırıq".

"Zati-aliləri. Azərbaycan Respublikasının möhtərəm Prezidenti, əziz dost.İcazə verin, "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Qazaxıstan ərazisində qəzaya uğraması ilə əlaqədar dərin kədərimi və hüznümü ifadə edim.

İnsan ölümü hər zaman çox ağır itkidir. Əzizlərini itirən ailələrə dərin hüznlə başsağlığı veririk, xəsarət alanların tezliklə sağalmalarını diləyirik.

Möhtərəm Prezident, xalqınıza dərin rəğbətimi bir daha ifadə edərək, bu çətin anlarda Sizə səbir arzulayıram".

***

**Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifdən:**

"Zati-aliləri, əziz Qardaşım. Dekabrın 25-də "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında faciəvi surətdə qəzaya uğraması ilə əlaqədar Pakistan xalqı və Hökuməti adından, şəxsən öz adımdan Sizə, azərbaycanlı qardaş və bacılarımıza dərin hüznlə başsağlığı verirəm.

Pakistan xalqı insanların həyatını itirməsi ilə nəticələnən bu hüznlü hadisə barədə xəbəri dərin kədər hissi ilə qarşıladı. Biz bu kədərli vaxtda Zati-aliniz və Azərbaycan xalqı ilə həmrəy olduğumuzu bildiririk.

Düşüncələrimiz və dualarımız həlak olanların ailələrinin yanındadır, rəm, yaralananların tezliklə sağalmalarını arzu edirəm.

Bu faciə Türk dünyasında hər kəsi dərindən təsirləndirdi, kədərli anlarda birliyin və dəstəyin önəmini xatırlatdı. Bu hüznlü hadisə ilə bağlı Azərbaycan xalqı ilə həmrəyik və kədərini bölüşürük".

***

**Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Can Mindən:**

"Zati-aliləri. "Azərbaycan Hava Yolları"nın təyyarəsinin Qazaxıstan ərazisində qəzaya uğraması nəticəsində sərnişinlərin və ekipaj üzvlərinin həlak olması xəbərindən sarsıldım.

Sizə və həlak olanların ailə üzvlərinə dərin hüznlə başsağlığı verir, bütün xəsarət alanların tezliklə sağalmalarını arzulayıram".

***

**Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkindən:**

"Hörmətli İlham Heydər oğlu. Bakıdan Qroznıya uçan "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması xəbəri məni dərindən kədərləndirdi.

Qəza nəticəsində faciəli şəkildə həlak olanlarla əlaqədar Həştərxan vilayətinin bütün sakinləri adından və şəxsən öz adımdan Sizə başsağlığı



## Azərbaycanı matəmə bürüyən təyyarə qəzası: "Detallı araşdırmadan sonra hər şey aydın olacaq"

***"Baş verən təyyarə qəzası nəticəsində bir neçə ekipaj üzvü həyatını itirib. Ekipaj üzvlərinin öz işlərini qəhrəmancasına yerinə yetirmələri nəticəsində 20-dən çox sərnişin sağ qalıb".***

"Unikal" xəbər verir ki, bu sözləri AZAL-ın prezidenti Samir Rzayev jurnalistlərə açıqlamasında deyib.

"Sözsüz ki, bu, həm AZAL üçün, həm də Azərbaycan xalqı üçün çox böyük hadisə idi. Məsələ hazırda araşdırılır. Qəzanın səbəbləri barədə məlumat veriləcək. Dərdimiz böyükdür. Allah həyatını itirənlərə rəhmət etsin. Sağ qalanlara şəfa diləyirəm. Sağ qalanların bu gündən etibarən ölkəyə gətirilməsi planlaşdırılır. Yəqin ki, yaxın günlərdə onlar hamısı Azərbaycana gətiriləcək. Hələ ki, qəza ilə bağlı hər hansı məqamdan danışmaq tez olardı. Təyyarəni qara qutusu tapılıb. Detallı araşdırmalardan sonra bütün məqamlar aydın olacaq", - deyə S.Rzayev qeyd edib.

Samir Rzayev Aktau yaxınlığında qəzaya uğrayan sərnişin təyyarəsinin dronla vurulub-vurulmaması məsələsindən danışıb. S.Rzayev hələ bu kimi iddialarla bağlı konkret fikir bildirməyin mümkün olmadığını qeyd edib.

## Mərkəzi Bank "Açıq bankçılıq" üzrə tələblərə dair açıqlama yaydı

***Azərbaycan Mərkəzi Bankın (AMB) İdarə Heyətininin 10 dekabr 2024-cü il tarixli 49/3 nömrəli Qərarı ilə "Ödəniş əməliyyatlarının aparılması üçün vasitəçilik xidmətinin və hesab üzrə məlumat xidmətinin göstərilməsi zamanı ödəniş xidməti təchizatçıları arasında istifadə olunan şəbəkə kanalları üzrə Tələblər" təsdiq edilib və qərar 21 dekabr 2024-cü il tarixindən qüvvəyə minib.***

"Unikal" AMB-yə istinadən xəbər verir ki, müvafiq tələblər "Açıq bankçılıq" yanaşmasının tətbiqi məqsədilə təsdiq edilib. Belə ki, "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Qanunun 62.7-ci maddəsinə əsasən Mərkəzi Banka operator və ödəniş sistemi iştirakçıları, habelə ödəniş xidməti təchizatçıları arasında istifadə olunan şəbəkə kanallarının standartlaşdırılmış, təhlükəsiz və etibarlı fəaliyyətinin təşkil olunması məqsədilə tələblər müəyyən etmək hüququ verilib. Bununla da maliyyə bazarlarında "Açıq bankçılıq" yanaşmasının tətbiqi mümkün olub.

Tələblərdə ödəniş hesabına giriş interfeysi üzrə dəstəklənən xidmətlər, interfeys iştirakçılarının fəaliyyətləri və interfeysin istifadə halları əhatə olunub. İnterfeysdən istifadə hallarına ödəniş hesabı üzrə məlumat, ödəniş əməliyyatının aparılması üçün vasitəçilik və açıq məlumat xidmətləri daxil edilib.

Qəbul olunmuş tələblər ölkəmizin maliyyə bazarlarında innovativ xidmət və məhsulların yaradılması, bununla da maliyyə bazarlarında xidmətlərin əlçatanlığının və səmərəliliyinin artırılması, ölkədə rəqəmsal bankçılıq və maliyyə texnologiyaları üzrə xidmətlərin əhatə dairəsinin genişləndirilməsi, "müştəri-bank" münasibətlərinin daha müasir müstəvidə qurulması və nəzarət subyektləri arasında tənzimləmə mühitinin qorunmasına xidmət edəcək.



## Nazir: "Təyyarə qəzasının səbəbi ilə bağlı açıqlama veriləcək"

***"Təyyarə qəzası ilə bağlı Qazaxıstan tərəfindən əməliyyat-istintaq qrupu yaradılıb. Eyni zamanda Azərbaycanın Baş Prokurorluğunun və Dövlət Mülki Aviasiya Agentliyinin mütəxəssisləri hadisə yerində işləyirlər".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərov deyib.

"Təbii ki, ekspertlərin verdiyi qərardan sonra təyyarə qəzasının səbəbi ilə bağlı açıqlama veriləcək", - deyə Kəmaləddin Heydərov bildirib.

Qeyd edək ki, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və fövqəladə nallar naziri Kəmaləddin Heydərov Qazaxıstanda qəzaya uğrayan təyyarədən sağ çıxan və yaralanan Azərbaycan vətəndaşlarına baş çəkiblər. Nazirlər Qazaxıstan xəstəxanalarında müalicə alan yaralıların səhhəti ilə maraqlanıblar.

Azərbaycan rəsmiləri sərnişinlərdən təyyarədə yaranmış fövqəladə vəziyyət və qəzanın səbəbləri ilə bağlı suallar soruşub, onların ifadələrini dinləyib.

## Ailəsi taleyindən xəbərsiz idi - Ağır yaralanan şəxs dostları ilə danışdı

***Təyyarə qəzasında ağır yaralanan Zaqatala sakini, xəstəxanadan dostları ilə danışıb.***

"Unikal" xəbər verir ki, ötən gün təyyarə qəzasında olub və xəbər alına bilməyən Zaqatala rayonunun Danacı kənd sakini Gərayev Mahir Əsədulla oğlu ilə bu gün onun dostları xəstəxanadakı həkimin köməyi ilə onunla telefon əlaqəsi yarada biliblər.

Qeyd edək ki, ailəsi onun öldüyü və yaralı olduğu haqda məlumatsız idi.

## Təşviqat materialları üçün yerlər müəyyənləşdirilir

***Bələdiyyə seçkisi ilə əlaqədar seçki məntəqələrinin ərazisində seçkiqabağı təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün müvafiq yerlərin müəyyənləşdirilməsi bu həftə yekunlaşacaq.***

"Unikal" xəbər verir ki, bununla bağlı "Azərbaycan Respublikasında bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı"nda öz əksini tapıb.

Seçki Məcəlləsinə əsasən, müvafiq yerləri dairə seçki komissiyasının təklifi ilə yerli icra hakimiyyəti orqanı və bələdiyyə qurumları müəyyənləşdirməlidirlər. Bu, səsvermə gününə azı 30 gün qalanadək, "Təqvim Planı"na uyğun olaraq 2024-cü il dekabrın 30-dək başa çatdırılmalıdır.

Xatırladaq ki, Azərbaycanda növbəti bələdiyyə seçkisi 2025-ci ilin yanvarın 29-na təyin edilib.

# "Sosial şəbəkələrdə Azərbaycan əleyhinə qarayaxma kampaniyası aparırlar"

## Siyavuş Novruzov: "Hüquq-mühafizə orqanlarının bu istiqamətdə apardığı işləri yüksək qiymətləndirirəm"

***Milli Məclisin Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov "Unikal"a müsahibə verib. O, sosial şəbəkələrdə əxlaqsızlığı təbliğ edən tiktokerlərin həbs olunmasından, sosial şəbəkələrlə bağlı ayrıca qanun layihəsinin qəbul olunub-olunmayacağından, qarşıdan gələn bələdiyyə seçkilərindən və sənədsiz evlərlə bağlı məsələlərdən danışıb.***

***-Siyavuş müəllim, son günlər sosial şəbəkələrdə əxlaqsızlığı təbliğ edən bir neçə tiktoker həbs olunub. Bu istiqamətdə aparılan işlərlə bağlı nə deyə bilərsiz?***

-Bu, çox düzgün addımdır. Sosial şəbəkələr insanların dünyaya çıxışına imkan yaradır, həmçinin, baş verən prosesləri izləməsi və müəyyən informasiya əldə etməsi üçündür. Və yaxud, elmi məlumatlarla, tarixlə, dinlə, ədəbiyyatla və başqa sahələrlə bağlı məlumatlar əldə etmək üçün imkanlar yaradır. Əfsuslar olsun ki, bir qrup adam bundan sırf anti-milli, əxlaqsızlığı təbliğ edən vasitə kimi istifadə edərək, 5-10 manat pul qazanmaq hesabına gənc nəslin tərbiyəsinə mənfi təsir göstərir. Xüsusilə qeyd etmək istərdim ki, bundan istifadə edən xaricdə olan ermənilər, xarici kəşfiyyat orqanları millətini danan azərbaycanlıları ələ keçirib, 5-10 manat pul verməklə anti-Azərbaycan dəstəsi yaradaraq orada dövlətimizin, ordumuzun, qələbələrimizin, ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin əleyhinə qarayaxma kampaniyası aparırlar. Xaricdə oturan bu şəxslər sosial şəbəkədən istifadə edərək ayrı-ayrı dövlət məmurlarını təhqir edirlər. Dəfələrlə sübut olundu ki, bunların bəzilərinin kökü ermənidir, bəziləri isə erməni vəsaiti hesabına bu addımları atır. Ümumiyyətlə, hüquq-mühafizə orqanlarının bu istiqamətdə apardığı işləri yüksək qiymətləndirirəm. Hesab edirəm ki, televiziyalara da əl gəzdirmək lazımdır. Müəyyən verilişlər var ki, cəmiyyətin, insanların əxlaqına təsir göstərir. Özlərindən şou düzəldərək bu və ya digər şəkildə insanları cəlb etməyə çalışırlar. Həm prokuror, həm məhkəmə, həm də polis rolu oynayırlar. Bu hüququ sizə kim verib? Yəni, yalanlar üzərində, qonşunun və ya heç bir faktı olmayan digərlərinin sözü əsasında verilişlər təqdim edirlər. Onlar da insanların əxlaqına çox pis təsir göstərir və bunlarla bağlı lazımi addımlar atılmalıdır. İnsanlar öyrəniblər ki, böyüklərdən tərbiyə və nəsihət alsınlar. Amma eləlarini efirə çıxarırlar, gəlini, qızı, oğlu və s. haqqında olmazın söz deyir. Bunlar tərbiyə və əxlaqa ziddi olan verilişlərdir. Onlarla bağlı da ölçü götürülməlidir.

***-Sosial şəbəkələrin tənzimlənməsi üçün ayrıca qanun qəbul olunması ilə bağlı bir neçə dəfə təkliflər irəli sürülüb. Bununla bağlı qanun layihəsinin hazırlanması gözlənilirmi?***

-Bəli, vaxtilə belə təkliflər səsləndirilib. Dünyanın bir sıra ölkələrində bu məsələlərə nəzarət olunur. Dezinformasiyalara və s. belə məsələlərə qarşı addımlar atılıb. Bəzi ərəb ölkələrində sosial şəbəkələr vasitəsilə düzgün olmayan məlumatlar verilirdi, qarşıdurmalar yaranırdı, yalan məlumatları ortaya atmaqla insanları qızışdırırdılar. Nəzər salsaq görərik ki, Əli Kərimli də təyyarə qəzasından sui-istifadə etməyə çalışır. Xaricdə oturanlar xalqın dərdindən, faciəsindən sui-istifadə edirlər. Dünyanın hər yerində təyyarə qəzası baş verib. Bunun səbəbi araşdırılır, ictimaiyyətə məlumat veriləcək. Sağ qalan şəxslər ekipaj üzvlərinin qəhrəmancasına çalışmasından danışırlar. Amma məsələni fırladaraq başqa istiqamətlərə yönəltməyə çalışırlar, bundan istifadə edirlər. Sosial şəbəkədə xalqın dərdindən, faciəsindən istifadə edənlər insan deyil. Bunlar da o biri tiktokerlər kimi məsuliyyətə cəlb olunmalıdır. Bununla bağlı məsələlər qanunvericilikdə sərtləşdirilməlidir. İndi internet televiziyalar açılır, bunların qanunvericiliklə tənzimlənməsi lazımdır ki, məsuliyyət daşısın. Onların televiziyasında kimlərsə digərini təhqir edirsə, haqqında yalan informasiya verirsə, məsuliyyət daşımalıdır. İnformasiya texnologiyaları o qədər inkişaf edib ki, yalan foto qoyurlar, klip düzəldirlər, səsi dəyişirlər. Bunların qarşısının alınması üçün bu məsələyə baxılmalıdır.

***-Sizin komitənin istiqaməti olduğu üçün qarşıdan gələn bələdiyyə seçkiləri ilə bağlı sual vermək istərdim. İşğaldan azad olunmuş ərazilərdə bələdiyyələrin formalaşması necə olacaq?***

-İşğaldan azad olunmuş ərazilərə 30 minə yaxın insan köçürülüb. Yeni qəbul edilən qanuna əsasən, 3 min sakini və yaxud min ev olmayan yerdə bələdiyyələr yarana bilməz. Əhali sayı bundan artıq olmalıdır ki,



orada bələdiyyələr formalaşsın. Hansı ərazilərdə bu say olacaqsa, həmin ərazilərə insanlar köçdükdən sonra bələdiyyə seçkiləri keçirilə bilər. Bələdiyyə seçkiləri yerli xarakterlidir. Ona görə 5 il müddəti gözləmək lazım deyil. Qanunvericiliyə görə 1 il qalmışa qədər seçki keçirilə bilər. Məsələn, Şuşa şəhərində 5 min əhali yaşayırsa, artıq Şuşa Şəhər Bələdiyyəsi yarada bilərik. Və ya Zəngilanın Ağalı kəndində əhalinin sayı 3 mini keçərsə, orada Ağalı bələdiyyəsi yarana bilər. Bu digər işğaldan azad olunmuş ərazilərimizə də aiddir.

***-İnsanları ən çox düşündürən məsələlərdən biri də sənədsiz evlərin taleyidir. Bu cür evlərin sənədləşdirilməsi ilə bağlı qərar verilə bilərmi?***

-Bununla əlaqədar böyük çətinliklər var. O evlərin əksəriyyəti əkin torpaqlarında tikilib. Keçmişdə həmin yerlər sovxozun ərazisi olub və orada evlər tikiblər. Bunlar ilk növbədə torpağın təyinatını dəyişməlidirlər. Bu, əkindən tikinti kateqoriyasına keçməlidir. Dörd yüz mindən artıq ev var ki, qeydiyyatda deyil. Orada yaşayan şəxslər həmin evləri sata bilmirlər. Həmçinin, girov qoyub kredit götürə bilmirlər. Bu evlər sənədləşdirilməlidir. Eyni zamanda bələdiyyələr belə evlərdən vergi yığa bilmirlər. Onlar torpaq, mülkiyyət vergisi verməlidirlər. Bəzi yerlərdə şikayət edirlər ki, kanalizasiya, qaz və ya işıq yoxdur. Bunlar qeyri-qanuni yaşayış məntəqəsidir. Planda deyil ki, orada müəyyən infrastruktur qurulsun. Sənədsiz evlərin sənədləşdirilməsi üçün İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti iş aparır. Bu, bir-iki ilin məsələsi deyil. 400 min evin həm torpaq təyinatının dəyişməsi, həm onların sənədləşdirilməsi və digər məsələlər yəqin ki, bir müddət çəkəcək.

***Anar Kəlbiyev***

# Teymur Musayev fiaskosu

## "Saxta plastik cərrahlar" qalmaqalında yeni adlar, şok iddialar... - Səhiyyə Nazirliyində baş verənlərin pərdəarxası!

***Yola salmaq üzrə olduğumuz həftə hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən Səhiyyə Nazirliyində əməliyyat həyata keçirildiyi barədə məlumat yayılıb. Bildirilib ki, əməliyyat zamanı saxlanılanlar var.***

O da bildirilib ki, əməliyyat ölkədə geniş rezonans doğuran saxta plastik cərrahlarla bağlı məsələ ilə əlaqədardır.

Qeyd edək ki, plastik cərrahlara saxta sertifikatların verilməsi ilə bağlı məsələdə Səhiyyə Nazirliyinin yüksək-vəzifəli məmurlarının - nazir müavini İlqar Qasımov və İnsan resursları, elm və təhsil şöbəsinin müdiri Səidə Rüstəmovanın adı hallanırdı.

Hələlik sözügedən əməliyyat və onun təfərrüatları barədə rəsmi açıqlama verilməyib.



Lakin belə bir əməliyyatın keçirilməsi sürpriz də deyil. Səbəb hələ Oqtay Şirəliyevin başçılıq etdiyi dövrdə rüşvət və korrupsiyanın dərin kök saldığı Səhiyyə Nazirliyindəki rəhbər dəyişikliyindən sonra da eyni mənzərənin davam etdiyinə dair ard-arası kəsilməyən xəbərlərdir.

### Yeni nazir ümidləri doğrultmadı

Ötən saylarımızda saxta plastik cərrah sertifikatları ilə bağlı təfərrüatlara toxunduğumuzdan təkrara ehtiyac görmürük. Sadəcə onu deyək ki, qalmaqalda adı hallanan nazir müavini ilə şöbə müdiri əslində sabiq səhiyyə naziri Oqtay Şirəliyevin kadrlarıdır.

Belə ki, 2006-cı il tarixdən 2017-ci il tarixədək Bakı şəhərindəki fərqli özəl klinikalarda fəaliyyət göstərən nazir müavini İlqar Qasımov 2017-ci ilin avqustunda məhz Oqtay müəllimin əmri ilə Azərbaycan Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun direktoru vəzifəsinə təyin olunub. Səidə Rüstəmova isə adı çəkilən nazirlikdə tibbi yardımın təşkili şöbəsində məsləhətçi olaraq çalışdığı halda sonradan şöbə müdiri vəzifəsinə gətirilib, Şirəliyev tərəfindən "Səhiyyə əlaçısı" döş nişanı ilə təltif edilib. Hətta iddialara görə, Oqtay müəllim onu müavin vəzifəsinə gətirmək niyyətində imiş, lakin postunu itirdiyi üçün bu, mümkün olmayıb.

23 aprel 2021-ci ildə Azərbaycan Respublikası səhiyyə nazirinin birinci müavini və səhiyyə naziri səlahiyyətlərinin icraçısı təyin edilən Teymur Musayev təxminən 8 ay sonra - 2022-ci ilin yanvarında nazir postuna təyinat aldı. Onun aradan keçən iki il yarımlıq müddətdə nazirlikdə ciddi islahatlar həyata keçirəcəyinə, özündən əvvəlki illərdə yığılıb qalan problemləri yoluna qoyacağına, köhnə təfəkkürlü məmurlarla yolları ayıracağına dair gözləntilər vardı. Lakin saxta plastik cərrah sertifikatları ilə bağlı qalmaqal həmin gözləntilərin puça çıxdığını göstərir.

İddialar bu yöndədir ki, Teymur müəllim istər nazir səlahiyyətlərini icra etdiyi, istərsə də bu posta rəsmən təsdiqləndiyi dövrdə onun karyera yüksəlişində həlledici rol oynamış Oqtay Şirəliyevlə daim məsləhətləşib, elə sələfinin kadrlarına da bu səbəbdən toxunmayıb. Nəticə etibarilə isə Səhiyyə Nazirliyində arzulanan islahatları həyata keçirmək, beləliklə də sözügedən qurumun daha effektiv, yeni dövrün çağırışlarına uyğun fəaliyyətini təmin etmək, nazirlikdə illər uzunu kök salmış rüşvət və korrupsiya meyllərini aradan qaldırmaq mümkün olmayıb.

### "Saxta plastik cərrahlar" qalmaqalında başqa adlar da var...

"Unikal"ın əldə etdiyi məlumata görə, ictimaiyyətdə haqlı olaraq geniş rezonans doğuran və hüquq-mühafizə orqanlarının müdaxiləsi ilə nəticələnən saxta plastik cərrah sertifikatları ilə bağlı skandalda yalnız İlqar Qasımovla Səidə Rüstəmovanın adları keçmir. Sözügedən məsələdə Səhiyyə Nazirliyinin başqa vəzifəli şəxslərinin də adları hallanır. Bu sırada Analitik Ekspertiza Mərkəzinin direktoru Murad Süleymanovla həmin qurumun Tibbi Nəzarət şöbəsinin müdiri, nazirlə eyni ad və soyadı daşıyan Teymur Musayevin də ciddi məsuliyyət daşıdığı bildirilir.

"Hər iki vəzifəli şəxs saxta sertifikatlar məsələsindən xəbərdar olublar və belə halları faktiki olaraq gizlədiblər" deyə bildirən qaynaqlar onu da əlavə edirlər ki, həmin sertifikatların verildiyi cərrahlarla bağlı yoxlamanı sözügedən mərkəz, eləcə də həmin mərkəzin Tibbi Nəzarət şöbəsi həyata keçirir. Lakin nə mərkəz, nə də şöbə rəhbəri bu vəzifənin öhdəsindən gəlməyiblər; əks təqdirdə, saxta plastik cərrahlarla bağlı qalmaqal baş verməzdi. M.Süleymanovla T.Musayevin hansı maraqlarla məlum sertifikatların alınmasına göz yumduğunu isə yəqin ki, söyləməyə hetiyac yoxdur.

Məsələ burasındadır ki, Tibbi Nəzarət şöbəsi qanunsuz şəkildə plastik cərrahlıqla məşğul olmaq icazəsi alanlarla bağlı yoxlamalar da aparıb, belələrini müəyyənləşdirib də... Həmin şəxslər barədə Analitik Ekspertiza Mərkəzinin rəhbərliyinə məlumat verilib və ardınca nələrinsə müqabilində sözügedən faktlara ya göz yumulub, ya da belə faktlar malalanıb.

Hər halda iddialar bu yöndədir və düzü, onlara inanmamaq mümkün deyil. Əks təqdirdə, sertifikat almış bu qədər saxta plastik cərrahın indiyədək rahat şəkildə fəaliyyət göstərməsini hansı məntiqlə izah etmək olar? Üstəlik, belə "cərrahların" zaman-zaman öz müştərilərinin sağlamlığını təhlükəyə atdığına, hətta onların ölümlərinə bais olduğuna dair xəbərlər yayıldığı halda!

Yəqin ki, başlanan cinayət işində saxta plastik cərrahlara sertifikat verənlərlə yanaşı, indiyədək onların qanunsuz fəaliyyətinə göz yumanlar, yaxud həmin "cərrahları" hər hansı formada qoruyanlar, himayə edənlər barədə də həqiqətlər ortaya çıxacaqdır.

### Sonda:

Bütün bunları ümumiləşdirdikdə isə təəssüflə vurğulamaq lazım gəlir ki, Oqtay Şirəliyevin vəzifəsini itirməsinin ardından səhiyyə naziri postuna gətirilən Teymur Musayevə bəslənən ümidlər elə ümid olaraq da qalıb. O, nazirliyin nə köhnəlmiş iş prinsiplərini, nə də "köhnə hamam, köhnə tas" prinsipi ilə işləməyi sevən kadrlarını dəyişdirə bilib. Bir sözlə, iki il yarım ərzində Musayevin fəaliyyətini yalnız bir cümlə ilə ifadə etmək mümkündür: fiasko!

Təsadüfi deyil ki, Səhiyyə Nazirliyində baş verənlər artıq bu qurumun Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə birləşdirilməsinə dair vaxtilə irəli sürülən təkliflərin təzəlikcə Milli Məclisdə yenidən dilə gətirilməsini şərtləndirib. Belə bir birləşmənin reallaşıb-reallaşmayacağını söyləmək çətindir, yalnız o dəqiqdir ki, adı çəkilən nazirliyin rəhbərliyində dəyişiklik, ciddi kadr islahatları artıq qaçılmaz görünür...

*Toğrul Əliyev*



## Ölənlərdən 7-sinin şəxsiyyəti müəyyənləşdi - RƏSMİ

***Aktauda dekabrın 25-də qəzaya uğrayan "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin konstruksiyalarını sökməyə başlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Qazaxıstan Fövqəladə Hallar Nazirliyi bildirib.

Təmizlik işlərində 306 nəfər iştirak edir. Fövqəladə Hallar Nazirliyindən verilən məlumata görə, aparılan qəza-xilasetmə əməliyyatları nəticəsində 3-ü azyaşlı olmaqla 29 nəfər xilas edilərək Aktau şəhərinin tibb müəssisələrinə yerləşdirilib.

"Yenilənmiş məlumatlara əsasən, 6-sı Qazaxıstan vətəndaşı və 3-ü ekipaj üzvü olmaqla, 38 mərhumun cəsədi tapılaraq məhkəmə-tibb mərkəzinə təhvil verilib. 7 nəfərin cəsədinin şəxsiyyəti müəyyən edilib", - məlumatda deyilir.

Xatırladaq ki, dekabrın 25-də yerli vaxtla saat 11:30-da Bakıdan (Azərbaycan) Qroznıya (Rusiya) uçan "Azərbaycan Hava Yolları"nın təyyarəsi Aktaudan 3 kilometr aralıda qəzaya uğrayıb.

## "Qızım sərnişinləri atası və anasından üstün tutdu" - Hökümənin anası

***"Qızım sərnişinləri atası və anasından üstün tutdu".***



Bu fikirləri "Unikal"a açıqlamasında stüardessa 33 yaşlı Hökümə Əliyevanın anası Kəmalə Alıyeva deyib: "Dünən səhər şəhərə gedirdik. Yoldaşı qardaşına zəng elədi ki, Hökümə işlədiyi təyarə qəzaya uğrayıb. Biz evə qayıtdıq. Mənə heç nə demədilər. Sonra söylədilər ki, Hökumə qəzaya düşüb. Bununla da belim qırıldı. Qızım ali təhsilli idi. Hökümə 2016-cı ildən "AZAL"da işləyirdi. Yaxın günlərdə isə AZAL-da hüquqşünas kimi işə başlayacaqdı, amma qismət olmadı. Mən qızımla fəxr edirəm".

Qeyd edək ki, Hökümə Əliyeva 1991-ci il təvəllüdlüdür, ailəlidir, övladı yoxdur. O, BDU-nun Hüquq fakültəsinin magistratura pilləsini bitirib və 2016-cı ildən hava yollarında çalışırdı.

*Tural Əhmədov*

46_27 IYUI-QARA.qxd 12/26/2024 10:36 PM Page 9



# "Son qərar yaxın günlərdə veriləcək" - Rəşad Nəbiyev



***Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğrayan AZAL-a məxsus ”Embraer” təyyarəsinin qara qutuları aşkar edilib.***

”Unikal” xəbər verir ki, bu barədə rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib.

O bildirib ki, qara qutular qanunvericiliyə uyğun olaraq araşdırılacaq. Son qərar sabah və ya yaxın günlərdə veriləcək.

Qeyd edək ki, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və fövqəladə hallar naziri Kəmaləddin Heydərov Qazaxıstanda baş vermiş təyyarə qəzasından sağ çıxan və yaralanan Azərbaycan vətəndaşlarını ziyarət ediblər.

Nazirlər xəstəxanalarda müalicə alan yaralıların səhhəti ilə maraqlanıb və onların vəziyyəti ilə bağlı həkimlərdən məlumat alıblar. Bundan əlavə, rəsmilər sərnişinlərlə danışaraq təyyarədə baş verən hadisələr və qəzanın səbəbləri barədə ifadələrini dinləyiblər.

# Təyyarə qəzası ilə əlaqədar ombudsmanların işçi qrupunun fəaliyyəti davam edir

***Məlumat verildiyi kimi, “Azərbaycan Hava Yolları” aviaşirkətinə məxsus təyyarənin Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində həyatını itirən və müalicəyə ehtiyacı olan şəxslərlə bağlı zəruri tədbirlərin görülməsi üçün Azərbaycanın, Qazaxıstanın, Rusiyanın, eyni zamanda, Rusiya Federasiyası Çeçenistan Respublikasının ombudsmanlarının iştirakı ilə birgə işçi qrup yaradılıb.***

Ombudsman Aparatının mətbuat xidmətindən bildirilib ki, işçi qrupa daxil olan son məlumatlara əsasən, qəzadan sonra xəstəxanaya 27 şəxs daxil olub. Onlardan 15-i Azərbaycan, 8-i Rusiya, 3-ü Qırğızıstan vətəndaşıdır. Bir nəfərin şəxsiyyəti, hələ ki, müəyyən edilməyib.

Qeyd edilib ki, xəstəxanaya yerləşdirilmiş şəxslərdən 11-i reanimasiya şöbəsində, 13-ü travmatologiya şöbəsində, 2-si neyrocərrahiyyə şöbəsində, 1-i isə cərrahiyyə şöbəsində müalicə alır. Həmin şəxslər Azərbaycan, Qazaxıstan və Rusiyadan ezam olunmuş peşəkar həkimlərin nəzarəti altındadır. Onlara operativ və ixtisaslaşmış tibbi və psixoloji yardımın göstərilməsi təmin edilib.

Məsələ Azərbaycan ombudsmanının diqqət mərkəzindədir.

# "Pilotlar peşəkar olmasa idi, nəticə daha betər ola bilərdi" - AZAL-ın əməkdaşı

***”Mərhum kapitan çox təcrübəli idi. Sosial şəbəkələrdə pilota qarşı qınaqlar edilir. Heç kim bilmir ki, pilotların peşəkarlığı olmasa idi, nəticə daha betər ola bilərdi. Pilotlar orada əllərindən gələni ediblər”.***

Bu sözləri ”Unikal”a açıqlamasında mərhum stüardessa Hökümə Əliyevanın iş yoldaşı Günel İbrahimli deyib: ”Bu böyük bir möcüzədir ki, 67 sərnişindən 30-dan çoxu qəzadan sağ çıxıb. Oradan heç kim sağ çıxmaya da bilərdi”.

***Seymur Əli***

# Təyyarə qəzasında həlak olan Ramin də stüard işləyirmiş

***Qazaxıstanın Aktau şəhərində Azərbaycan təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanlardan biri də Ramin Ağayevdir.***

O, Rusiya vətəndaşı olub və Moskvada yaşayıb. 28 yaşlı Ramin Ağayev Kirovda yerləşən Vyatka Dövlət Universitetində jurnalistika ixtisasını oxuyub. O, Ural Hava Yollarında stüard işləyirmiş. Ramin dekabrın 24-də altı yaşlı qardaşı oğlunu nənəsinin yanına aparmaq üçün Bakıya uçub. Dekabrın 25-də Qroznıya uçmalı, oradan da Moskvaya getməli idi.

Qeyd edək ki, “Azərbaycan Hava Yolları” QSC-nin (AZAL) J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən “Embraer 190” təyyarəsi Aktau şəhərinin 3 km yaxınlığında qəza enişi edib.

Təyyarənin göyərtəsində 62 sərnişin, 5 ekipaj üzvü olmaqla, ümumilikdə 67 nəfər olub. Qazaxıstan tərəfi bildirib ki, təyyarədə olan sərnişinlər arasında 37 Azərbaycan vətəndaşı olub, onlardan 23-ü həyatını itirib.

# Oliqarx hotellərində Yeni il fürsətcilliyi

## Ağlasığmaz qiymətlər: iki gün üçün müştəridən 6 min manat istəyənlər belə var... - Xaricdə tətil daha ucuz başa gəlir!

***Azərbaycanda yeni il qabağı hotellərdə qiymətlər kəskin bahalaşıb. Ayrı-ayrı hotellərin qiymətlərinə nəzər saldıqda, müəyyənləşdirilən məbləğlərin orta statistik vətəndaşlar üçün hədsiz əlçatmaz olduğu aydınlaşır.***

Məsələn, ”Gabala Hospitality Group”-a daxil olan ”Qafqaz Tufandağ Hotel” 31 dekabr - 1 yanvar tarixlərinə standart otaqların qiyməti 1140 manat olub. Üç yataq otaqlı lüks villanın iki gecəlik qiyməti isə 5896 manatdan başlayır.

”Qafqaz Riverside Hotel”də isə bayram axşamı və yanvarın 1-i tarixinə qiymətlər 1576 manatdan təklif olunur. Buraya səhər və axşam qidalanma, 31 dekabrda şou proqram daxildir. Hoteldə ən bahalı ”kinq suet” nömrələrin qiyməti isə iki nəfər üçün 3626 manatdır.

”Quba Palace Hotel”də bayram günləri iki gecə və şou proqram daxil qiymət iki nəfər üçün 2600 manatdan başlayır.

Şahdağda yerləşən ”Pik Palace” hoteldə isə iki gecəlik yerlər satılıb. Üç gecəlik standart otaqlar iki nəfər üçün səhər yeməyi və qala gecə daxil 4440 manatdır. 6390 manat isə ”suit” otaqların qiymətidir.

”Park Chalet” hoteldə üç gecəlik standart otaq səhər yeməyi daxil 3350 manatdır. ”Junior suit” otaqlarda bayram günlərində qiymətlər iki nəfər üçün 4850 manat təşkil edəcək.

”Shamakhi Palace Shardil” hoteldə 31 dekabr - 2 yanvar tarixləri iki nəfər üçün qiymət 1690 manatdır.

”Marxal Resort” hoteldə isə iki gecə standart otaq 640 manatdan başlayır, dörd nəfərlik otaqlar isə bayram günlərində 1520 manatdır.

Cənub bölgəmizdəki ”Lankaran Springs” də 3 gün 2 gecə (31 dekabr-2 yanvar), 3 dəfə qidalanma daxil qiymət 1399 manatdır. ”Sakit Gol Shamakhy” hoteldə iki nəfərlik iki bayram gecəsi 1250 manata başa gəlir.

”Qalaalti Hotel & SPA”da təntənəli iki gecəlik iki nəfər üçün qiymətlər 1480 manatdır.

”EL Resort Qakh Hotel”də iki gecəlik iki nəfər üçün standart otaqlar 725 manatdır. Bura səhər yeməyi və qala gecə daxildir. Bayram günlərində ”xan otaqları”nda gecələmək üçün isə 1188 manat ödəmək lazımdır.



Hotellərdəki ağlasığmaz qiymətləri şərh edən turizm üzrə ekspert Ceyhun Aşurov “Sputnik Azərbaycan”a açıqlamasında bildirib ki, ölkəmizdə fəaliyyət göstərən hotellərdəki qiymətlərə ölkə xaricində də istirahət mümkündür. Sitat: “Misirdə, Maldivdə, Şri-Lankada Azərbaycanda hotel qiymətlərindən bir qədər yuxarı məbləğə gündə üç dəfə qidalanma daxil istirahət mümkündür. Azərbaycanda yüksək qiymətlər əsasən böyük hotellərdə müşahidə olunur. Ölkəmizdə 800-ə yaxın hotel var ki, onun 250-si Bakıda yerləşir. Regionlarda hotellərin sayı o qədər də çox deyil. Seçim imkanlarının az olması bayram günlərində hotellərə tələbatı artırır...”

Ekspert bildirib ki, Azərbaycanda əsas problem insanların öz büdcələrinə uyğun hotel tapa bilməməsidir. Bunun üçün isə azulduzlu, aşağı büdcəli hotellər tikilməlidir.

Bir sıra ekspertlərin fikrincə isə bayram günlərində hotel və restoran qiymətlərinin yüksək olması normaldır, lakin bayramdan əvvəlki və sonrakı qiymətlərlə bayram günlərindəki qiymətlər arasındakı fərqin bu qədər yüksək olması tamamilə absurddur, sui-istifadə halı kimi dəyərləndirilə bilər.

“Bayramdan əvvəlki günlər üçün 2 nəfərlik paket qiymət 300-500 manatdırsa, bayram günləri üçün 2 nəfərlik qiymət necə 1500-2000 manatdan başlaya bilər? Həmin qiymətləri 3 və ya 4 nəfərlik paketə vurub hesabladıqda ümumiyyətlə ağlasığmaz məbləğlər ortaya çıxır. Qaz vurub qazan doldurmaq niyyəti ilə müəyyənləşdirilən bu cür dodaqucuqladan qiymətlər fürsətcillikdən başqa bir şey deyil” - bəzi turizm mütəxəssislərinin mövzu ilə bağlı qənaəti belədir.

Bir müddət öncə iqtisadçı ekspert Xalid Kərimli hotellərin bayramları fürsət bilib qiymətləri kəllə-çarxa çıxarmasını şərh edərkən maraqlı bir məqama diqqət çəkmişdi. Onun fikrincə, hotellər adi günlərdə sabit xərclərini qarşılaya bilmədikləri üçün ziyanla fəaliyyət göstərirlər. Bayram günlərində otel qiymətlərində artım bununla bağlıdır.

Ümumi mənzərə aydındır: əksər hotellər bayram günlərini fürsət bilərək kimlərinsə “cibinə girmək”lə planlarını doldururlar. Halbuki sözügedən obyektlər özlərinin qiymət siyasətində xarici ölkələrdəki təcrübədən yararlansalar, süni qiymət artımını asan qazanc mənbəyinə çevirmək yerinə, müasir turizm standartlarını mənimsəsələr fantastik qiymət artımlarına da ehtiyac qalmaz. Beləcə, həm hotel sahibləri ilboyu yetərincə, üstəlik sabit gəlir əldə edərlər, həm də hotellər ilin istənilən vaxtı əksər vətəndaşlar üçün əlçatana çevrilər...

***Sənan Mirzə***

46_27 IYUl-QARA.qxd 12/26/2024 10:36 PM Page 10



# AST Telmanın Bakıdakı şirkətinə şok...

## Qalmaqallı iş adamının holdinqinə məxsus MMC niyə cərimələnir?



"AST-Texnologiyaları" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) Azərbaycandakı filialı barəsində iqtisadi fəaliyyət qaydaları əleyhinə olan (Valyuta tənzimi qaydalarının pozulması) inzibati xəta protokolu tərtib olunub. Qaynarinfo-nun məlumatına görə, protokol İnzibati Xətalar Məcəlləsinin 430.4-cü maddəsi ilə tərtib edilib.

İnzibati Xətalar Məcəlləsinin 430.4-cü maddəsinə əsasən, avans yolu ilə ödənilmiş valyuta vəsaitinin müqabilində müəyyən edilmiş müddətlərdə müvafiq mallar idxal edilmədikdə, işlər görülmədikdə və ya xidmətlər göstərilmədikdə ödənilmiş valyuta vəsaitinin xaricdən geri qaytarılmamasına görə vəzifəli şəxslər inzibati xətanın bilavasitə obyekti olmuş valyuta vəsaiti məbləğinin 10 faizindən 20 faizinədək məbləğdə, hüquqi şəxslər inzibati xətanın obyekti olmuş valyuta vəsaiti məbləğinin 20 faizindən 30 faizinədək məbləğdə cərimə edilir.

Qeyd edək ki, "AST-Texnologiyaları" şirkətinin Azərbaycan Respublikasındakı Filialının qanuni təmsilçisi Allahverdiyev Namaz Mürsəl oğludur. "AST-Texnologiyaları" şirkəti iş adamı Telman İsmaylova məxsus "AST Group"a daxildir.

Onu da deyək ki, "AST-Texnologiyaları"nın adı son zamanlar qalmaqallı xəbərlərlə gündəmə gəlir. İki il öncə şirkətin Azərbaycandakı filialının dövlət qarşısında vergi borcunun olduğu aydınlaşmışdı. Həmin vaxt İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumat bazasına əsasən məlum olmuşdu ki, vergi borcunun məbləği 20 031 manatdır.

Ötən il isə "AST-Texnologiyaları" şirkətinin Azərbaycandakı filialı ilə "Evrascon" Açıq Səhmdar Cəmiyyəti (ASC) arasında məhkəmə çəkişməsinin dalana dirənməsi barədə xəbərlər mediada geniş yer almışdı. Bildirilirdi ki, "Evrascon" hələ 2022-ci ildə "AST-Texnologiyaları" şirkəti ilə bağlı Bakı Kommersiya Məhkəməsində iddia qaldırıb. İddia Bakı Kommersiya Məhkəməsinin hakimi Nərmin Əhmədovanın icraatına verilib. Hakim üç dəfə hazırlıq iclası təyin etsə də, məhkəmə baş tutmayıb. 12 yanvar 2023-cü il tarixə növbəti dəfə hazırlıq iclası təyin edilib. Lakin bu dəfə də iclas baş tutmayıb. Həmin səbəbdən iddiaçı tərəfin yenidən məhkəməyə müraciət etdiyi bildirilirdi. İki şirkət arasında məhkəmə çəkişməsinin bu qədər uzanmasının, hazırlıq iclaslarının baş tutmamasının səbəbləri isə açıqlanmırdı. Bəzi iddialara görə, səbəb qarşı tərəfin məhkəməyə gəlməməsi ilə bağlıdır. Lakin sonradan alqı-satqı müqaviləsi üzrə yaşanan həmin məhkəmə qarşıdurmasına dair xəbərlərin arası kəsildi və bu hüquqi çəkişmənin necə nəticələndiyi məlum olmadı.

Xatırladaq ki, "AST-Texnologiyaları" şirkətinin qalmaqallı sahibi Telman İsmayılova 2017-ci ildə iki sahibkarın qətlini təşkil etməklə bağlı ittiham irəli sürülüb və o, "İnterpol" xətti ilə axtarışa verilib. 2021-ci ildə "AST Telman" kimi tanınan biznesmenin Monteneqroda saxlanıldığı və barəsində 2 aylıq həbs-qətimkan tədbiri seçilməsi barədə məlumat yayılmışdı. Lakin sonradan o azad edilib və iş adamına Monteneqroda sığınacaq verilib.

Bu ilin yayında isə Rusiyanın İstintaq Komitəsi Telman İsmayılova qarşı müğənni Avraam Russonun qətlinin sifarişi ilə bağlı ittiham irəli sürmüşdü. Məlumata görə, 2006-cı il avqustun 19-da Avraam Russo konsertdən evinə geri dönərkən onun avtomobili atəşə tutulub. Rusiyalı müğənni hadisə nəticəsində üç güllə yarası alıb. "Hazırda istintaq hadisənin keçmiş taksi sürücüsü Vitaliy Djura və daşınmaz əmlak agentliyinin rəhbəri Aleksey Tryasnikov tərəfindən törədildiyini hesab edir. Telman İsmayılov isə sözügedən cinayət işində və 2004-cü ildə Russonun qaçırılması işində sifarişçi olaraq çıxış edir. Bildirilir ki, bu zaman biznesmen müğənninin əsas sponsoru olub" deyə Rusiya mediası yazmışdı. O da vurğulanırdı ki, 2016-cı ildə Rusiyanın Baş İstintaq İdarəsi Russonun qaçırılması və ona qarşı sui-qəsd təşkil edilməsi işlərini birləşdirib. 2021-ci ildə Tryasnikov, daha sonra isə Djura həbs olunub. Onlar hələ də təqsirli olmadıqlarını bildirirlər.

Xatırladaq ki, Russo bundan əvvəl məsələ ilə bağlı açıqlama verərək bildirmişdi ki, 2004-cü ilin yanvarında İsmayılov öz əlaltıları ilə onu döyüb, estrada fəaliyyətini onun şərtləri əsasında davam etdirməyi tələb edib. Bundan başqa, müğənnini döydükdən sonra İsmayılovun Moskva ətrafındakı evinə aparıblar, artist bütün tələblərlə razılaşmayanadək orada saxlayıblar.

Maraq üçün onu da bildirək ki, "AST Telman" 1956-cı ildə Göyçayda dünyaya göz açıb. 12 uşaqlı ailənin 10-cu övladı olan T.İsmayılovun ailəsi uzun illər orada yaşayıb. 1970-ci ilin əvvəllərində valideynləri ilə Bakıya köçüblər. 1973-1976-cı illər ərzində o, Xalq Təsərrüfatı İnstitutunda (hazırkı İqtisadiyyat Universiteti) təhsil alıb. Universitetin birinci kursunda oxuyarkən mağaza sahibi olur. Orduda xidmət etdikdən sonra isə təhsilini Moskva Xalq Təsərrüfatı İnstitutunda davam etdirib. Bu ali məktəbi 1980-ci ildə başa vurub. 80-ci illərdə İsmayılov Ticarət Nazirliyində iqtisadçı vəzifəsində çalışıb. Keçmiş milyarderin atası Mərdan kişi həmin vaxtlar Göyçay bazarında parça mağazasında işləyib. Hələ o dövrdə imkanlı və çoxlu qızıla sahib olduğundan ona "Lələ" ləqəbi verilib.

T.İsmayılov 1989-cu ildə "AST" şirkətini qurub. "AST" qrupunun illik dövriyyəsi vaxtilə 2 milyard dollara bərabər olub. 2013-cü il üçün "Forbes" jurnalının məlumatlarına əsasən isə "AST Telman"ın 750 milyon dollar sərvətinin olduğu göstərilib. Daha sonrakı illərdə isə o, iflasa uğrayıb.

T.İsmayılovun həyat yoldaşı Quba rayonundandır. Onların Ələkbər və Sərxan adlı iki övladı var.

***Sənan Mirzə***

# Baş nazirlər qəzada həlak olanların nəşinin gətirilməsini müzakirə etdilər



***Dekabrın 26-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenov arasında növbəti telefon danışığı baş tutub.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Nazirlər Kabinetinin Mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, hökumət başçıları ötən gün baş vermiş təyyarə qəzası ilə əlaqədar bir-birilərinə və həlak olan şəxslərin ailə üzvlərinə və yaxınlarına başsağlıqlarını ifadə edib, xəsarət alanların tezliklə şəfa tapmasını diləyiblər.

Əli Əsədov qəza baş verdikdən dərhal sonra axtarış-xilasetmə əməliyyatının həyata keçirilməsində yüksək operativlik göstərdiyinə və hadisə ilə bağlı bütün məsələlərdə yaxından dəstək verdiyinə görə Qazaxıstan tərəfinə təşəkkür edib.

Bektenov bu gün Azərbaycanın Astanadakı səfirliyini ziyarət etdiyini, qəza nəticəsində çoxsaylı insan ölümü ilə əlaqədar dərin hüznlə başsağlığı verdiyini, səfirlikdə açılan xatirə kitabında qeyd qoyduğunu bildirib.

Telefon danışığı zamanı qəza nəticəsində xəsarət alanlara və yaralananlara Azərbaycan və Qazaxıstanın aidiyyəti qurumları tərəfindən yüksək koordinasiya şəraitində təxirəsalınmaz yardım göstərilməsi, sağ qalan Azərbaycan vətəndaşlarının, habelə həlak olan şəxslərin cəsədlərinin ölkəmizə gətirilməsi, həmçinin hadisə ilə bağlı bir sıra digər çevik cavab tədbirləri ətrafında fikir mübadiləsi aparılıb.

Eyni zamanda, hadisənin baş vermə səbəblərinin araşdırılması ilə bağlı cinayət işi üzrə birgə aparılan istintaqın gedişi müzakirə olunub.

# Xaricdəki səfirlik və konsulluqlarımızda bayraqlar endirildi

***Azərbaycan Hava Yollarına məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların xatirəsi Azərbaycanın Moskvadakı Səfirliyində yad edilib.***

"Unikal" xəbər verir ki, səfirliyin önünə gül dəstələri düzülüb və bayrağımız yarıyadək endirilib.

Ölkəmizin Yekaterinburqdakı Baş Konsulluğunda da faciə qurbanlarının xatirələri dərin ehtiramla yad edilib.

Konsulluqda bayraq yarıyadək endirilib və xatirə kitabı açılıb.

Qazaxıstanın Aktau şəhərindəki Baş Konsulluğumuzda da xatirə kitabı açılıb və qəzada həlak olanların xatirəsi yad edilib.

# Dəmiryolu ilə yükdaşımaların həcmi açıqlandı

***Bu ilin yanvar-noyabr aylarında Azərbaycanda dəmiryolu nəqliyyatı ilə 3 milyard 10 milyon 019 min ABŞ dolları dəyərində 6 milyon 957 min 518,97 ton yük daşınıb.***

"Unikal" Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir ki, bu, 2023-cü ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 10,1 % və 4 % azdır.

11 ay ərzində dəmiryolu nəqliyyatı ilə 796 milyon 348 min ABŞ dolları dəyərində 2 milyon 581 min 306,78 ton yük ixrac olunub, 2 milyard 213 milyon 671 min ABŞ dolları dəyərində 4 milyon 376 min 212,19 ton yük idxal edilib.

Hesabat dövründə ixrac olunan yükün dəyəri 26,1 %, həcmi isə 13,5 % azalıb. İl ərzində idxal olunan yükün dəyəri 2,5 % azalıb, həcmi 2,6 % artıb.

46_27 IYUI-QARA.qxd 12/26/2024 10:36 PM Page 11





## Yolda aparılarkən və xəstəxanada ölən olub? - Baş konsul açıqladı

***"Qazaxıstan dövlətinə dərin təşəkkürümüzü bildiririk". Bunu Azərbaycanın Aktau şəhərindəki Baş konsulu Ayxan Süleymanlı deyib.***

"Qazaxıstan dövlətinin əlaqədar strukturları hadisələrə çox operativ şəkildə reaksiya verdilər. Onlar əllərindən gələni etdilər ki, yaralıları sağ çıxara bilsinlər. Çox vaxtında, zamanında lazım olanı etdilər. Aktauda Türkiyə, İran, Türkmənistan və Özbəkistanın da Baş konsulluqları fəaliyyət göstərir, onlar da bura gəldilər. Xəstəxanada da tibbi müdaxilə vaxtında edildi. Həkimlər əllərindən gələni etdi ki, yaralılar həyatda qalsın. Məndə olan məlumata görə, nə xəstəxanaya aparılarkən, nə də xəstəxanada ölən olub".

Qeyd edək ki, 25 dekabr tarixində "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsi təcili eniş zərurəti ilə bağlı Aktau şəhəri istiqamətinə yön alaraq, Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. Təyyarədə 5 ekipaj üzvü və 62 sərnişin olmaqla, ümumilikdə 67 nəfər olub. Qəza nəticəsində 38 nəfər həyatını itirib, 29 nəfər sağ qalıb.

Qəzanın səbəbləri araşdırılır(apa).

## Xəstənin ölümündə günahlandırılan həkimin cəzası bilindi



***Ali Məhkəmədə səhlənkarlıqda təqsirləndirilən Fatimə Abdullazadənin barəsindəki hökmdən verilən kassasiya şikayəti üzrə məhkəmə iclası başa çatıb.***

Hakim Tahir Kazımovun sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub.

Qərara əsasən, kassasiya şikayəti təmin edilib və iş baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilib.

İttihama görə, hadisə 2022-ci il iyulun 22-də, saat 4 radələrində Göyçay Rayon Mərkəzi Xəstəxanasında qeydə alınıb.

Belə ki, rayon sakini, 1993-cü il təvəllüdlü Vüsalə Teymur qızı Quliyeva yüksək hərarətlə sözügedən xəstəxanaya çatdırılıb. Tibbi müdaxiləyə baxmayaraq, Vüsalə Quliyeva orada vəfat edib. Həmin müddətdə Fatimə Abdullazadə xəstəxananın təcili və təxirəsalınmaz tibbi yardım şöbəsinin təcili yardım bölməsində məsul növbətçi həkim xidmətində olub. Hadisədən sonra o, cinayət məsuliyyətinə cəlb edilib.

Göyçay Rayon Məhkəməsinin hökmü ilə o, 3 il 6 ay müddətinə azadlığın məhdudlaşdırılması (elektron qolbaq) cəzasına məhkum edilib. Hökmdən narazı qalan dövlət ittihamçısı apellyasiya protesti və zərərçəkmiş şəxsin hüquqi varisinin nümayəndəsi isə apellyasiya şikayəti verib. Şəki Apellyasiya Məhkəməsi şikayət və protesti qismən təmin edib, hökmü cəzaya aid hissədə dəyişdirib. Belə ki, təqsirləndirilən şəxs 1 il 6 ay müddətinə həkimlik fəaliyyəti ilə məşğul olmaq hüququndan məhrum edilməklə 2 il həbs cəzasına məhkum olunub. Hökmdə qeyd edilib ki, Fatimə Abdullazadə cəzasını məntəqə tipli cəzaçəkmə müəssisəsində çəkəcək.

# Gülağa İslamov oğlunun icra başçısı olmasını istəyirmiş...

## Sabiqlərin izi ilə: Xəzər rayonunun keçmiş rəhbəri bu istəyini niyə reallaşdıra bilməyib?

***"Unikal" qəzeti "Sabiqlərin izi ilə" layihəsini davam etdirir. Bu silsilədən növbəti yazımız Xəzər Rayon İcra Hakimiyyətinin sabiq başçısı Gülağa İslamov haqqındadır.***

İslamov Gülağa Bayram oğlu 1948-ci il dekabr ayının 19-da Bakı şəhərində anadan olub. 1965-ci ildə Bakı şəhər 156 saylı orta məktəbi, 1990-cı ildə isə Poltava Koorperasiya İnstitutunu Əmtəəşünaslıq ixtisası üzrə bitirib. Əmək fəaliyyətinə isə Azərbaycan SSR Kurortlar İdarəsi Avtomobil Nəqliyyatı Birliyində böyük mexanik kimi başlayıb. 1967-1977-ci illərdə böyük mexanik, çilingər, mexanik işləyib.

1977-1995-ci illərdə Bakı Şəhər Kooperativ Ticarəti İdarəsində çeşidləyici, Qəbul Məntəqəsinin müdiri, anbardar, Estoniya Respublikasındakı "Flores" Kooperativində baş əmtəəşünas, Şüvəlan Gülçülük Sovxozunda şöbə müdiri, "Şüvəlan" İstehsal-Ticarət Assosiasiyasında 1 saylı sahənin rəisi, "Qərənfil" Fermer Təsərrüfatının müdiri çalışan İslamov düz 23 il boyunca - 1995-2018-ci illərdə Bakı şəhəri Xəzər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini tutub.



70 yaşı ərəfəsində - 2018-ci il dekabrın 18-də Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilən İslamov bundan 3 gün sonra vəzifəsindən azad edilib.

Gülağa müəllim postunu itirdiyi gün isə onun məhkəməyə ilginc bir müraciəti ortaya çıxıb. Məlum olub ki, sabiq icra başçısı Mərdəkanda bağ evinin həyətyanı sahəsində 300-ə qədər it saxlayan Eldar Mansurova qarşı iddia qaldırıb. Lakin qərar İslamovun əleyhinə olub - onun iddiası təmin edilməyib. "E.Mansurov keçmiş polis zabitidir. Ondan məhkəməyə şikayət edən G.İslamov iddia ərizəsində yazırdı ki, Mərdəkan sakini olan bir qrup şəxs icra hakimiyyətinə E.Mansurovun qəsəbədə, R.Cəfərov küçəsi, ev 2 ünvanında 300-ə yaxın sahibsiz it saxlaması haqda məlumat verib. İcra başçısının sözlərinə görə, sakinlərin şikayəti araşdırılıb, Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi, Bakı şəhər Baş Polis İdarəsi, Mərdəkan bələdiyyəsi və s. 10-a qədər orqanın əməkdaşları E.Mansurovun həyətinə baxış keçirib" - məhkəməyə müraciətində bunu vurğulayan sabiq başçı iddia edib ki, baxış zamanı həmin ərazidə kəskin qoxu və səs-küy gəldiyi məlum olub. Araşdırmalardan sonra E.Mansurov barəsində inzibati xəta protokolu tərtib olunub, ondan sahibsiz itlərin yaşayış sahəsindən köçürülməsi tələb olunub. "Xahiş edirik, araşdırma aparılıb, qeyri-qanuni saxlanılan sahibsiz itlərin yaşayış sahəsindən çıxarılması və Eldar Mansurovun ev heyvanı saxlamaq hüququndan məhrum edilməsi barədə qərar qəbul edəsiniz" - icra başçısının iddia ərizəsində tələb belə idi. Ancaq vəzifəsini itirdiyi gün açıqlanan məhkəmə qərarında Gülağa müəllimin bu tələbi də təmin olunmayıb.

Ümumiyyətlə isə 23 illik icra başçılığı dönəmində İslamov haqqında çoxsaylı şikayətlər səsləndirilib, ittihamlar dilə gətirilib. Onun yüksək post tutduğu dönəmdə böyük sərvətə sahibləndiyi, sahibkarları qısnadığı, özünə yaxın şəxslərə geniş imtiyazlar tanıdığı barədə xəbərlərin ard-arası kəsilmirdi. Hətta sabiq başçı öz oğlu İlham İslamovu 22 yaşında Şüvəlan bələdiyyəsinin sədri seçdirməyə belə nail olmuşdu. 2005-ci ildən həmin bələdiyyəyə rəhbərlik edən oğul İslamovun qəsəbədə torpaqları qanunsuz şəkildə satdığına dair ittihamlar irəli sürülmüşdü. Oxşar vəziyyətin Qala bələdiyyəsində də yarandığı deyilirdi. Həmin bələdiyyənin sədri isə o vaxtlar Gülağa müəllimin qudası idi.

Sabiq icra başçısı vəzifəsindən azad edilərkən yerli media onun rəhbərliyi dövründə Xəzər rayonunun kənd və qəsəbələrində çox sayda sosial problemlərin yığılıb qaldığına diqqət çəkirdilər.

2015-ci ildə Gülağa müəllimin çox sayda restoranlarının olduğu gündəmə gəlmişdi. Belə ki, vəfat edən Xalq artisti Nuriyyə Əhmədovanın bacısı Maya Həsənova onu mərhum sənətkarın yasına gəlməməkdə, yasın keçirilməsinə heç bir köməklik göstərməməkdə günahlandırarkən demişdi: "Nə başçı, nə müavinləri, nə də onları təmsil edən nümayəndələrdən heç kim yasa gəlmədi. Soruşan olmadı ki, rayonda Xalq artisti rəhmətə gedib, 50 ilin sənətkarının yası necə veriləcək? Onlar hamısı bilirdilər ki, Nuriyyə Əhmədovanın heç evi də yoxdur. Onun hansı şəraitdə yaşadığına da yaxşı bələd idilər. Gülağa İslamov bəlkə 100 restoran işlədir, 10-dan yuxarı maşını var, onun bir yası yola vermək üçün 2000 manata gücü çatmırdı? Özü gəlmədi, heç olmasa meyidi yerdən götürəydi..."

G.İslamov isə özü barəsində nəinki bu açıqlamanı, müxtəlif vaxtlarda səsləndirilən digər bütün iddia və ittihamları demək olar cavabsız buraxıb, onlara hər hansı münasibət bildirməyib.

Belə iddialar da vardı ki, Gülağa müəllim özündən sonra oğlunun Xəzər Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi üçün bəzi səylər göstərib. Lakin onun bu absurd cəhdləri təbii ki, nəticəsiz qalıb. Üstəlik, İlham İslamov 15 il tutduğu bələdiyyə sədrliyi vəzifəsini də itirib.

Hazırda 76 yaşlı Gülağa müəllim təqaüddədir.

***Sənan Mirzə***

**5.3.3. insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Əlillərin məşğulluq hüququ necə təmin edilir?

## "Aldığı travma yeriməsinə çətinlik yaratsa da, həyatda öz ayaqları üzərində durmasına əngəl ola bilməyib" - İkinci qrup əlil

***Əlilliyi olan şəxslərin əsas hüquqlarından biri də onların məşğulluğu üçün şəraitin yaradılmasıdır. Azərbaycan hüquqi dövlət olduğundan, əlilliyi olan şəxslərin hüquqlarının qorunmasına xüsusi diqqət və qayğı göstərilir. Onların məşğulluğu daim dövlətin diqqətindədir. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana) əlilliyi olan şəxslər və ya onlarla bağlı ünvanlanan müraciətlər arasında sosial təminat, müayinə və müalicə, məşğulluq, reabilitasiya vasitələri ilə təminat, habelə bölgələrdə dövlət hesabına reabilitasiya xidmətləri göstərən müəssisələrin yaradılması əsas yer tutur. Bunu Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva mətbuata müsahibəsində bildirib.***

Qeyd edək ki, son illər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi əlilliyi olan şəxslərin məşğulluğunun təmin olunması istiqamətində əhəmiyyətli işlər görür. Rəsmi məlumata görə, bu ilin 10 ayında da Agentlik tərəfindən işlə təmin edilənlərdən 9500-ə yaxını, özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatları qurulanlardan 1300 nəfəri əlilliyi olan şəxslər olub. Həmin dövrdə əlilliyi olan 421 şəxs isə peşə hazırlığına cəlb edilib.

Özünüməşğulluğa cəlb olunanlardan biri də 2-ci qrup əlil Rihad Abbasovdur. Rihad Abbasov "Unikal"a açıqlamasında bildirib ki, beş il əvvəl baş vermiş avtoqəza ona da əlillik qazandırıb. Onun ayağından aldığı travma yeriməsində çətinlik yaratsa da, həyatda öz ayaqları üzərində durmasına əngəl ola bilməyib.

2019-cu ildə baş verən avtoqəza zamanı travma alan R.Abasov o zaman 5 saylı peşə liseyində bərbərlik təhsili alırmış. R. Abbasov avtoqəza zamanı travma alsa da, öz sevib-seçdiyi peşəsindən ayrılmayıb. Sabunçu rayonu Pirşağı qəsəbəsində yaşayan müsahibimiz özünüməşğulluq proqramı üçün Dövlət Məşğulluq Agentliyinə müraciət edir. Onun ən böyük arzularından biri öz bərbərxanasının olması idi. Bu səbəblə kurslara cəlb edilən Rihada sonra bərbərxana üçün lazım olan alətlər və mebellər, digər texniki avadanlıqlar verilir. 2022- ci ildən öz məşğulluğunu quran R. Abbasov deyir ki, əlilliyi olan şəxslərin məşğulluğunun təmin olunmasına sağlam insanlardan daha çox ehtiyac var.

"Sağlam insan özünü hansısa bir yolla təmin edə, dolandıra bilər. Əksi olsa belə bu ona bir sıxıntı yaratmır. Amma əlilliyi olan insanların öz çörəyini özlərinin qazanmasına daha çox ehtiyacları var. Bu zaman onlar özlərini həm ailəsinə, həm də ətrafdakılara, eləcə də cəmiyyətə yararlı bilirlər. Əlilliyi olan şəxs məşğul olduqda cəmiyyətdən ayrı düşmür, əksinə inteqrasiyası daha rahat olur. Eyni zamanda özü- öz ayaqları üzərində durduğuna görə psixoloji cəhətdən güclü olur. Bu isə əlilliyi olan şəxsdə yaşamaq eşqini daha da gücləndirir. Onlar özlərini cəmiyyətin digər üzvlərindən fərqli hesab etmirlər. Buna görə də, R. Abbasov əlilliyi olan şəxslərin özünüməşğulluğuna dəstəyin verilməsinin mühüm addım olduğunu söyləyir. Bildirir ki, bu gələcəkdə əlilliyi olan şəxslərin kiçik sahibkara çevrilməsinə də dəstək olur. R. Abbasov gələcəkdə kiçik bərbərxanasını daha da böyüdərək kiçik sahibkar olmasını hədəflədiyini söylədi.





Qeyd edək ki, son illər Azərbaycanda qanunvericilik bazası da əlilliyi olan şəxslərin məşğulluq hüququnun qorunması istiqamətində təkmilləşdirilir. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanunun bir fəsli əlilliyi olan şəxslərin məşğulluğuna həsr olunub.

Qanunun 21-ci maddəsində qeyd edilir ki, əlilliyi olan şəxslərin digər şəxslərlə bərabər səviyyədə əmək fəaliyyəti ilə məşğul olmaq, o cümlədən açıq, inkluziv və müyəssər iş şəraitində sərbəst seçdiyi və ya qəbul etdiyi əmək bazarında iştirak etməklə öz yaşayışını təmin etmək hüququ var. Əmək münasibətlərində əlillik əlamətinə görə hər hansı ayrı-seçkiliyə yol verilməsi, habelə kollektiv və əmək müqavilələrində digər işçilərlə münasibətdə əlilliyi olan şəxslərin əmək hüquqlarının məhdudlaşdırılması qadağandır. Əlilliyi olan şəxsin səhhətinin peşə vəzifələrini yerinə yetirməsinə mane olduğu, yaxud başqa şəxslərin səhhəti və əmək təhlükəsizliyi üçün təhlükə törətdiyi hallar istisna olmaqla, onunla əlillik səbəbindən əmək müqaviləsini bağlamaqdan, işdə irəli çəkməkdən imtina edilməsinə, əmək müqaviləsinə xitam verilməsinə və öz razılığı olmadan başqa işə keçirilməsinə yol verilmir. Müəssisənin ləğv edilməsi halları istisna olmaqla, müddətindən asılı olmayaraq, reabilitasiya müəssisəsində və digər reabilitasiya subyektlərində müalicə keçən əlilliyi olan şəxslərlə bağlanılmış əmək müqaviləsinin işəgötürən tərəfindən ləğv edilməsi yolverilməzdir.

Dövlət əmək bazarında əlavə iş yerləri və əlilliyi olan şəxslər üçün uyğun şəraitə malik müəssisə və təşkilatlar yaratmaq yolu ilə, eləcə də xüsusi proqramlar üzrə təlim təşkil etməklə, əlilliyi olan şəxslərin məşğulluğunu təmin edir. Həmçinin "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, əlilliyi olan şəxsləri işlə təmin etmək üçün müəssisə və təşkilatlarda kvota müəyyən edilir. Bu Qanunun 22.2-ci maddəsinə əsasən kvota müəyyən edilmiş iş yerlərinə əlilliyi olan şəxslər müvafiq icra hakimiyyəti orqanının göndərişi ilə işə qəbul edilirlər. Bu Qanunun 22.3-cü maddəsinə əsasən işə düzəlmək üçün əlilliyi olan şəxslərə verilmiş göndəriş, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş kvota şamil edilməyən müəssisələr istisna olmaqla, mülkiyyət növündən və təşkilati hüquqi formasından asılı olmayaraq müəssisə və təşkilatlar tərəfindən qəbul edilməlidir. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən göndərilmiş əlilliyi olan şəxsləri onlar üçün kvota üzrə müəyyən olunmuş iş yerlərinə qəbul etməyən işəgötürənlər qanunla müəyyən edilmiş məsuliyyət daşıyırlar.

Qanunun 23-cü maddəsi isə iş yerlərinin əlilliyi olan şəxslərə müyəssər olması və istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına həsr olunub. Belə ki, müvafiq icra hakimiyyəti orqanı tərəfindən göndərilmiş, habelə işəgötürənlər tərəfindən işə qəbul edilmiş əlilliyi olan şəxslər iş yerlərinin standartları nəzərə alınaraq iş yerləri ilə təmin olunurlar. Əlilliyi olan şəxslərin iş yerlərinin standartları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Qanunun 24-cü maddəsinə görə, işəgötürənlər həmin istehsalatda bədbəxt hadisələr nəticəsində əmək qabiliyyətini itirmiş və ya peşə xəstəliyinə tutulmuş və bunun nəticəsində əlilliyi olan işçilərin, onların arzusu ilə Fərdi Reabilitasiya Proqramını nəzərə alaraq, işə düzəlməsi üçün iş yerləri ayırmağa və ya yenilərini təşkil etməyə borcludurlar. Əlilliyi olan şəxslərin iş yerlərinin onların istifadəsi üçün uyğunlaşdırılması məqsədi ilə işəgötürən əlilliyi olan şəxslərin iş yerlərindən istifadə imkanlarını asanlaşdıran texniki avadanlıq və qurğuların alınması, mövcud olan texniki avadanlıq və qurğuların əlilliyi olan şəxslərin tələbatına uyğunlaşdırılması, ixtisaslaşmış vasitəçilərin xidmətləri ilə təmin edilməsi kimi ağlabatan tədbirlər həyata keçirir.İşçilərin sayı və ya ştatları ixtisar edilərkən, müvafiq peşələr üzrə işçilərin ixtisasları və ya peşəkarlıq səviyyələri eyni olduqda, həmin müəssisədə istehsalat qəzası və ya peşə xəstəliyi nəticəsində əlilliyi olan şəxsin işdə saxlanılmaq üçün üstünlük hüququ var. Müəssisənin ləğv edilməsi halları istisna olmaqla, işçi ilə əmək müqaviləsinin işəgötürən tərəfindən ləğv edilməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur. İstehsalatda bədbəxt hadisələr və ya peşə xəstəliyi nəticəsində işləməyən orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərin "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən yaşa görə əmək pensiyasının təyin edilməsi üçün yaş həddinə çatanadək pensiyada olduqları müddət onların sığorta stajına daxil edilir.İşəgötürənlər əlilliyi olan şəxsləri sağlam, təhlükəsiz və bu Qanunun 11-ci maddəsində göstərilən Fərdi Reabilitasiya Proqramına uyğun əmək şəraiti ilə təmin edir, əmək qabiliyyətinin bərpa olunması, iş yerində əlilliyin qarşısının alınması üçün tədbirlər həyata keçirirlər. Əlilliyi olan işçilərin əməyinin tətbiqi, əmək şəraitinin xüsusiyyətləri, əməkhaqqı, iş və istirahət vaxtı, məzuniyyət müddəti və əmək münasibətlərinin bu Qanunda tənzimlənməyən digər məsələləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

Dövlət əlilliyi olan şəxslərin fərdi əmək və sahibkarlıq fəaliyyəti ilə məşğul olması, evdə əməyin təşkili üçün lazımi şərait yaradır, iqtisadi fəaliyyətlərinin genişləndirilməsi məqsədi ilə stimullaşdırıcı tədbirlər həyata keçirir, ədalətli və əlverişli əmək şəraitinə dair hüquqlarının digər şəxslərlə bərabər qorunmasına zəmanət verir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

46_27 IYUl-QARA.qxd 12/26/2024 10:37 PM Page 13



## Geoloqlar işğaldan azad olunmuş ərazilərdə tədqiqatları davam etdirəcəklər



*Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutunda yerinə yetirilən "İşğaldan azad edilmiş ərazilərdə radioaktiv sahələrin və radon qazının yayılma aktivliyinin tədqiqi və "qaynar nöqtələrin" geoloji təbiətinin təhlili" adlı elmi-tədqiqat işinin müzakirəsi keçirilib.*

İnstitutdan bildirilib ki, müzakirədə icraçılar elmi-tədqiqat işinin gedişatı haqqında geniş məlumat veriblər. Məsafədən zondlama məlumatları əsasında müəyyən edilmiş təhlükəli ərazilərdə yerüstü radiometrik ölçmələrin nəticələrinə, tərtib edilmiş xəritələrə və ərazilərdən götürülmüş nümunələrin laborator şəraitdə radionuklid tərkibinin müəyyən edilməsi diqqət mərkəzində olub. Yeni yanaşmalar və işin gələcək perspektivləri haqqında fikir mübadiləsi aparılıb. Yekunda işin tədqiqat planına uyğun olaraq davam etdirilməsi qərara alınıb.

## İçərişəhər "Cümə məscidi"ndə həlak olanların xatirəsi anılıb



*Aktau yaxınlığında AZAL-a məxsus təyyarənin qəzaya uğraması ilə əlaqədar qəza nəticəsində həlak olanların xatirəsi bu gün Azərbaycanın bütün məscidlərində, o cümlədən İçərişəhər "Cümə məscidi"ndə də anılıb.*

Qafqaz Müsəlmanları İdarəsi Qazilər Şurasının üzvü, İçəri şəhər "Cümə məscidi" dini icmasının sədri hacı Surxay Məmmədli bildirib ki, "Qazaxıstanın Aktau şəhərində "Azərbaycan Hava Yollarına" məxsus təyyarənin qəzaya uğraması nəticəsində insanların faciəli şəkildə həlak olması xəbəri bizi dərindən sarsıdıb.

İçərişəhər "Cümə" məscidi dini icması olaraq QMİ-i sədrinin göstərişinə əsasən İçərişəhər "Cümə" məscidində təyyarə qəzasında həlak olanların ruhlarına Qurani Kərimdən ayələr tilavət edildi, onların ruhlarına dualar oxunub.

Dini icma olaraq bir daha xalqımıza dərin hüznlə baş sağlığı verir, qəzada yaralananlara Uca Allahdan şəfa diləyirik.

Uca Allah xalqımızı bütün bəlalardan qorusun!".

## Agentliyin qrant müsabiqəsinə bu qədər layihə təklifi daxil olub




*QHT-lərə Dövlət Dəstəyi Agentliyinin 2025-ci il üçün elan etdiyi qrant müsabiqələrinə müraciətlərin sayı açıqlanıb.*

Agentlikdən "Unikal"a verilən məlumata görə, qramt müsabiqələrinə layihə qəbulu 25 noyabr-25 dekabr tarixləri arasında aparılıb.

Bir ay müddətində Agentliyə 768 layihə təklifi daxil olub.

"Ötən il olduğu kimi, bu il də yüksək fəallıq qeydə alınıb", - Agentlikdən bildirilib.

Bölgü bu şəkildə formalaşıb:

Kiçik qrant müsabiqəsi - 518 layihə;

Orta qrant müsabiqəsi - 170 layihə;

Böyük qrant müsabiqəsi - 80 layihə.

Yaxın 1 ay ərzində texniki ekspertiza nəticələri bütün QHT-lərə müvafiq elekton sistem vasitəsilə bildiriləcək. Texniki ekspertiza mərhələsindən uğurla keçən layihələri müstəqil ekspert qrupu yoxlayacaq. Bundan sonra QHT-lərə Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurası müstəqil ekspertiza nəticələrinə əsaslanmaqla, kollegial müzakirələr apararaq qalibləri müəyyən edəcək.

Qaliblərin adları 2025-ci ilin I rübü ərzində elan olunacaq.

# "Quşların eyni anda iki mühərrikə girməsi çətindir" - Aviasiya üzrə ekspert

*Azərbaycan Hava Yollarına məxsus "Embraer-190" təyyarəsinin Aktauda qəzaya uğraması bir sıra suallara səbəb olub.*



"Unikal" xəbər verir ki, bu barədə sualları aviasiya üzrə qazaxıstanlı ekspert Serik Muxtıbayev cavablandırıb.

Onun sözlərinə görə, uçuşdan əvvəl ekipaj alternativ aerodromları müəyyən edir: "Yanacağın miqdarı, hava şəraiti, sərhədləri keçmək zərurəti və digər parametrlər hesablanır. Çox güman ki, onlar Aktaunu alternativ hava limanlarından biri kimi planlaşdırıblar. Bu baxımdan ekipaj çox güman ki, normal hərəkət edib. Başa düşdüyüm kimi, hava şəraitinə görə Mahaçqalaya enə bilməyib, kapitan Aktauda eniş etmək qərarına gəlib. Bu, uçuşların təhlükəsizliyini təmin etmək üçün normal təcrübədir".

Ekspert təyyarənin uçuşun 37-ci dəqiqəsində radarlardan itdiyini, sonra yenidən peyda olmasını belə şərh edib: "Təyyarədən çəkilən videoda oksigen maskalarının açıldığını gördüm. Bu, texniki bir şeyin baş verdiyini göstərə bilər. Maskalar adətən depressurizasiya zamanı və ya digər fövqəladə hallarda sərnişinlərin oksigenlə təmin edilməsi lazım olduqda düşür. Təyyarə transponderdən istifadə edərək siqnal göndərir və onun köməyi ilə hərəkət izlənir. Əgər onun siqnalı itibsə, bu o deməkdir ki, elektrik sönmüş və ya başqa bir şey ola bilər. Ola bilsin ki, pilotlar mühərriki yenidən işə salmağa çalışırdılar və bunun üçün bütün təyyarənin enerjisini kəsiblər. Çoxlu fərziyyələr ola bilər. Amma bütün bunlara istintaq zamanı aydınlıq gələcək. Qara qutu vəziyyəti qiymətləndiriləcək".

Muxtıbayev həmçinin qeyd edib ki, təyyarə qeyri-sabit uçub və pilotlar vəziyyəti düzəltməyə çalışıb: "Quşların eyni anda iki mühərrikə girməsi çətindir. Və bir mühərriklə də uçuşa davam edə bilərsiniz. Bundan əlavə, ilkin məlumata görə, bir saatlıq uçuşdan sonra ekipaj texniki nasazlıqlar barədə məlumat verib. Və bir saatlıq uçuşdan sonra təyyarə kifayət qədər yüksəklik əldə etmişdi. Bunu istisna etmək olmaz, lakin quşların toqquşması ən çox uçuş və eniş zamanı baş verir. Hündürlük əldə etdikdən sonra bu ehtimal quşların kütləvi köçü zamanı baş verə bilərdi. İndi isə qışdır, hansı köç var?"

Ekspert təyyarənin suya endirilməsi ehtimalını da dəyərləndirib: "Suya eniş ən arzuolunmaz variantdır. Suya doğru yanaşma bucağını seçməsəniz, təyyarə dərhal parçalanacaq. 15 il əvvəl bir pilotun Hudzonda təyyarəni suya endirə bilməsi yalnız onun bacarığıdır. Pilotlar kamikadze deyil - onlar ilk növbədə özlərini və sərnişinlərini xilas edirlər. Yəqin ki, transkriptdən daha aydın olacaq. Amma məncə, onlar təyyarəni mümkün qədər təhlükəsiz yerə endirmək üçün əllərindən gələni etdilər".

***Ağarza Elçinoğlu***

# Bayrağımız 9 il əvvəl də yarıya endirilmişdi - Səbəb

*Bayraq matəm günlərində, önəmli dövlət adamlarının ölümü və ildönümləri zamanı onlara hörmət əlaməti olaraq, təhlükəli vəziyyətlərdə, beynəlxalq səviyyəli terror, fəlakətlər zamanı və bəzi hallarda salamlama simvolunun göstəricisi kimi normal yüksəklikdən aşağı endirilir.*



Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insanın həlak olması ilə əlaqədar dekabrın 26-da Azərbaycanda matəm elan edilib. Bu səbəbdən bayraq yarıya qədər endirilib.

Sonuncu dəfə Azərbaycanda matəm 6 dekabr 2015-ci il tarixində olub.

O zaman ölkə səviyyəsində matəm elan edilməsinə səbəb 2015-ci ilin 4 dekabr tarixində "Günəşli" neft yatağının 10 saylı dərin dəniz özülündə güclü qasırğanın doğurduğu qəza nəticəsində çoxsaylı insan tələfatı olub. Həmin hadisə nəticəsində 63 nəfər zərər çəkib ki, onlardan da 16-sı dünyasını dəyişib, 17-si itkin düşüb. Bu hadisə ilə əlaqədar olaraq Azərbaycan Respublikası Prezident İlham Əliyevin qərarı ilə Azərbaycanda 6 dekabr tarixi matəm günü elan olunub.

# Bu ərazilərə qar yağacaq - Proqnoz

*Dekabrın 27-də gözlənilən hava şəraiti açıqlanıb.*

Milli Hidrometeorologiya Xidmətindən "Unikal"a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Gecə yarımadanın ayrı-ayrı yerlərində intensivləşəcəyi ehtimalı var. Cənub-şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 7-9º isti, gündüz 9-11º isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunu olacaq. Nisbi rütubət 70-80 % olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gecə və səhər bəzi şərq rayonlarında, axşam isə əksər rayonlarda arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi



əsəcək.

Havanın temperaturu gecə 2O-7º isti, gündüz 8-12º isti, dağlarda gecə 2º şaxtadan 3º-dək isti, gündüz 4-9º isti olacaq.

46_27 IYUl-QARA.qxd 12/26/2024 10:37 PM Page 14



# AMEA: Humanitar yönümlü müəssisələr tərəfindən 13 mühüm elmi nəticə əldə edilib

***Bu il AMEA Humanitar Elmlər Bölməsinin (HEB) elmi müəssisələri tərəfindən 9 beynəlxalq, 12 respublika əhəmiyyətli elmi konfrans, 100-ə yaxın tədbir keçirilib. HEB-in nəzdində fəaliyyət göstərən elmi müəssisələr tərəfindən 13 mühüm elmi nəticə əldə edilib.***



Bu barədə Humanitar Elmlər Bölməsinin elmi-tədqiqat müəssisələrinin 2024-cü ilin yekunlarına həsr olunmuş ümumi yığıncağında məlumat verilib.

Qeyd olunub ki, HEB-in elmi müəssisələrində 6 istiqamət üzrə 34 problem, 71 mövzu, 438 iş üzrə elmi-tədqiqat işləri aparılıb, 11 problem üzrə 314 iş tam icra olunub.

Humanitar yönümlü elmi-tədqiqat müəssisələrinin alimləri 136 kitab (7-si xaricdə), 58 monoqrafiya (8-i xaricdə), 1784 məqalə (431-i xaricdə) və 253 tezis (154-ü xaricdə) nəşr etdiriblər. "Web of Science" və "Scopus" bazalarında əməkdaşların 20 məqaləsi (Ədəbiyyat İnstitutu 18, Əlyazmalar İnstitutu 1, Memarlıq və İncəsənət İnstitutu 1) işıq üzü görüb.

HEB-in elmi müəssisələrində 68 fəlsəfə doktoru və 20 elmlər doktoru hazırlığı üzrə təhsil həyata keçirilib. 36 fəlsəfə, 11 elmlər doktoru hazırlığı üzrə dissertasiya işi müdafiə edilib.

Humanitar Elmlər Bölməsinin elmi müəssisələrinin 2024-cü ildəki fəaliyyəti yüksək səviyyədə qiymətləndirilərək bölmə üzvləri tərəfindən yekdilliklə qəbul olunub.

# Elektrik şəbəkəsinə qoşulma prosesinin daha da optimallaşdırılması məsələsi təhlil edilib



***Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Energetika Nazirliyinin rəhbərlik etdiyi "Elektrik təchizatı şəbəkələrinə qoşulma" işçi qrupunun videokonfrans formatında 2024-cü ilin yekunlarına həsr olunmuş hesabat xarakterli iclası keçirilib.***

Energetika Nazirliyindən bildirilib ki, işçi qrupunun rəhbəri, energetika nazirinin müavini Samir Vəliyev iclası açaraq gündəlikdə duran məsələləri təqdim edib, cari ildə müvafiq sahədə əldə edilmiş nailiyyətləri və qarşıda duran vəzifələrin səmərəli icrasının ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin gücləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb.

Komissiya Katibliyinin rəhbəri Vüsal Şıxəliyev çıxışında bildirib: "Elektrik şəbəkəsinə qoşulma sahəsində aparılan islahatlar və yaradılan elektron xidmətlər biznes mühitinin əlverişliliyinin artırılmasına müsbət təsir etməklə yanaşı, müvafiq sahədə beynəlxalq reytinqlərin yaxşılaşmasına töhfə verib. Bu sahədə əldə edilmiş nailiyyətlərin daha da gücləndirilməsi və yeni istiqamətlərdə təkmilləşmələrin davam etdirilməsi qarşıda duran əsas prioritetlərdəndir".

"Azərişıq" ASC sədrinin birinci müavini Ramil Yusifov isə elektrik təchizatı şəbəkəsinə qoşulma sahəsində icra edilmiş rəqəmsallaşdırma və optimallaşdırma tədbirləri haqqında danışıb, növbəti ildə də bu səylərin genişləndiriləcəyini, eyni zamanda, həm sahibkarlarla, həm də geniş ictimaiyyətlə müntəzəm kommunikasiyanın davam etdiriləcəyini qeyd edib.

İclasın gündəliyinə müvafiq olaraq, Dünya Bankının "Business Ready" hesabatının "Kommunal xidmətlər (elektrik)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsində sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına hesablanmış tədbirlərin icra vəziyyəti barədə məlumat verilib. 2025-ci il üzrə Yol Xəritəsinin layihəsi müzakirəyə çıxarılıb, elektrik şəbəkəsinə qoşulma prosesinin daha da optimallaşdırılması məqsədilə nəzərdə tutulmuş tədbirlər iştirakçılar tərəfindən ətraflı təhlil edilib.

İntensiv Kommunikasiya Planının icrası istiqamətində elektrik şəbəkələrinə qoşulma prosesinin şəffaflığını təmin etmək və bu sahədə sahibkarların məlumatlılığını artırmaq məqsədilə reallaşdırılan tədbirlər nəzərdən keçirilib.

İclasda, həmçinin "Kommunal xidmətlər (elektrik)" indikatoru üzrə ekspert sorğularına verilən cavabların diaqnostika sənədi müzakirə edilib.

Energetika, İqtisadiyyat, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirlikləri, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, "AzərEnerji" ASC, "Azərişıq" ASC, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Enerji Məsələlərini Tənzimləmə Agentliyinin nümayəndələrinin iştirakı ilə keçirilən iclasda qarşıda duran tapşırıqların icrası ilə bağlı təklif və tövsiyələr qiymətləndirilib.

# AzMİU-da Qərbi Azərbaycanla bağlı rəsm sərgisi təşkil olunub

***Dekabrın 25-də Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) "Qərbi Azərbaycan - Qədim Tarixi Yurdumuz" mövzusunda rəsm sərgisinin açılışı keçirilib.***



"Unikal" xəbər verir ki, tədbirdə universitetin rektoru, professor Gülçöhrə Məmmədova, Qərbi Azərbaycan İcmasının aparat rəhbəri Qalib Qasımov, şəhid ailələrinin üzvləri, AzMİU-nun professor-müəllim heyəti və tələbələri iştirak ediblər.

Açılış mərasimi ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin və dekabrın 25-də Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların əziz xatirəsini bir dəqiqəlik sükutla yad etməklə başlayıb. Ardınca Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Tədbirdə çıxış edən rektor professor Gülçöhrə Məmmədova vurğuladı ki, Qərbi Azərbaycan bölgəsi Azərbaycanın qədim və zəngin tarixə malik ərazilərindən biridir. Bu sərgidə nümayiş olunan əsərlər Qərbi Azərbaycanın maddi və mədəni irsini, tarixi abidələrini və adət-ənənələrini əks etdirir. O, həmçinin, Qarabağa və Şərqi Zəngəzura Böyük Qayıdışın davamı olaraq, Qərbi Azərbaycana da qayıdışın qaçılmaz olduğunu bildirib.

Qərbi Azərbaycan İcmasının aparat rəhbəri Qalib Qasımov çıxışında Qərbi Azərbaycan torpaqlarında aparılmış deportasiya və soyqırımların acı nəticələrindən danışıb.

Tədbirdə şəhidlərimizin ailə üzvləri, o cümlədən I Qarabağ Şəhidi Həsənquliyev Şirindilin bacısı Nazlıxanım Həsənquliyeva və II Qarabağ Şəhidi Rauf İbadovun atası Məhərrəm İbadov da çıxış edərək öz ürək sözlərini bölüşdülər.

Tədbirin sonunda sərginin rəmzi olan lent kəsildi və sərgiyə baxış keçirilib.

Sərgi Azərbaycan torpaqlarının qədim və zəngin tarixini, milli-mədəni irsimizi tanıtmaq məqsədini daşıyırdı. Təqdim edilən əsərlər AzMİU-nun Memarlıq və Dizayn fakültələrinin tələbələri tərəfindən yaradılıb və Təsviri İncəsənət kafedrasının müəllimlərinin rəhbərliyi ilə hazırlanıb. Sərgidə 111 rəsm əsəri və 11 əl işi nümayiş olunub.

Sərgidə fərqlənən tələbələrin işlərinə diplomlar, digər iştirakçılara isə təşəkkürnamələr təqdim olunub.

Qeyd edək ki, bu cür tədbirlər Azərbaycan mədəniyyətinin qorunması və gənc nəslin milli irsə bağlılıq ruhunda tərbiyə olunmasına böyük töhfə verir.

# Sevgi sınağı: 2025-ci ilin əvvəli iki bürc üçün gərgin keçəcək

***Bu, münasibətləri, dürüstlüyü və mühüm qərarlar qəbul etmək bacarığını sınamaq vaxtı olacaq.***

2025-ci ilin əvvəlində ulduzlar iki bürc üçün xüsusi testlər hazırlayır. Bəziləri üçün bu, hisslərin yeni cəhətlərini kəşf etmək şansı, digərləri üçün isə ən çox dəyər verdikləri şeyi itirmək riski olacaq. Bu çağırışlarla tam olaraq kim qarşılaşacaq?

Venera və Marsın astroloji təsirləri iki bürcün nümayəndələri üçün sevgi sferasında xüsusi gərginlik yaradacaq.

Bu, münasibətlərin, dürüstlüyün və mühüm qərarlar qəbul etmək bacarığının sınaqdan keçirildiyi vaxt olacaq.

Ulduzların sevgidə əzmkarlıqlarını sınayacaq ilk əlamət Şirlər olacaq. Onlar üçün bu, şəxsiyyətinə diqqətin artacağı bir dövr olacaq.

Yeni tanışlıqlar, canlı duyğular və ətrafdan gələn cazibələr mövcud münasibətlərdə müəyyən nifaq yarada bilər.

Onlar seçim etməli olacaqlar: dərhal istəklərinə əməl edin və ya münasibətlərdə sabitliyi qoruyun.

Unutmayın ki, qısamüddətli vəsvəsələr əsl hissləri kölgədə qoya bilər.

Sınaq zonasına düşəcək növbəti bürc Əqrəbdir. Birdən həyatlarına qayıda biləcək köhnə hisslərin güclü təsirini hiss edəcəklər.

Əqrəbləri indiki münasibətlərini şübhə altına alacaq keçmiş tərəfdaş ola bilər.

Bundan əlavə, onların təbii emosionallığı və nəzarət etmək istəyi münaqişələrə səbəb ola bilər.

Əqrəblər üçün lazımsız məyusluqların qarşısını almaq üçün tərəfdaşına güvənməyi öyrənmək vacibdir.

Hər iki əlamət üçün bu dövr sevgi haqqında fikirlərini yenidən düşünmək və hisslərinin nə qədər dərin olduğunu anlamaq üçün bir fürsət olacaq.

Ulduzlar həqiqətən dəyərli olanı itirməmək üçün özünüzə və tərəfdaşlarınıza qarşı dürüst olmağı məsləhət görürlər./Lent.az

## İlon Maskı "XXI əsrin Yuli Sezarı" adlandırdılar



***İspaniyanın "Mundo" qəzeti amerikalı sahibkar İlon Maskı 21-ci əsrin "Sezarizmini" əks etdirən ilin adamı elan edib.***

"Unikal" xəbər verir ki, müvafiq material nəşrin saytında dərc olunub.

"O, köklü yeni təcrübəni təcəssüm etdirir: 21-ci əsrin "Sezarizmi". Bu təcrübədə şirkətlərin siyasətçilərlə birlikdə dövlətləri "birgə idarə etməyə" çağırıldığı görünür", - hesabatda deyilir.

Jurnalistlər Maskı qədim Roma komandiri Yuli Sezarla müqayisə ediblər. Müəlliflər qeyd ediblər ki, siyasətçi dövrünün ən varlı adamı olub. Eyni zamanda, o, xalqın dəstəyini və Roma İmperiyası üzərində hakimiyyəti öz əlinə alıb.

Eyni zamanda qəzet amerikalı sahibkarın ABŞ prezidenti ola bilməyəcəyinə də diqqət çəkib.

***Gülayə Mecid***

## BMT təyyarə qəzasına görə başsağlığı verdi

***"Qazaxıstanın qərbində bir çox insanın, o cümlədən Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Rusiya vətəndaşlarının həyatına son qoyan təyyarə qəzası xəbəri BMT-nin Baş katibi Antoniu Quterreşi dərindən kədərləndirib".***

"Unikal" xəbər verir ki, bu barədə BMT Baş katibinin sözçüsünün müavini Stefani Trembleyin AZAL-ın Bakı-Qroznı reysini həyata keçirən təyyarəsinin Aktauda qəzaya uğraması ilə əlaqədar bəyanatında deyilir. Bildirilir ki, Baş katib həlak olanların ailələrinə və zərər çəkmiş ölkələrə dərin hüznlə başsağlığı verir. "Baş katib həmçinin, bu faciəvi hadisədə yaralananların tez və tam şəkildə sağalmasını arzulayır",- deyə bəyanatda qeyd edilir.

## Esma Əsədin yaşama şansı azdır - KİV

***Suriyada devrilmiş prezident Bəşər Əsədin həyat yoldaşı Esma Əsəd kəskin leykemiyadan əziyyət çəkir və onun sağ qalma şansı azdır.***

"Unikal" xəbər verir ki, bu barədə məlumatı Britaniyanın "The Telegraph" nəşri dərc edib.

Məlumata görə, həkimlər Esmanı infeksiyalardan qorumaq üçün təcrid ediblər. Esma Esadın heç kimlə eyni otaqda olmasına icazə verilmir.

Esmanın atası Fəvvaz Əhrasın Moskvada qızı ilə birlikdə olduğu və ona dəstək olduğu iddia edilib.

***Gülayə Mecid***

## "Suriyanın parçalanmasına icazə verilə bilməz" - Lavrov



***"Suriyanın parçalanmasına icazə verilə bilməz, baxmayaraq ki, bəziləri bunu çox istəyir".***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya xarici işlər naziri Sergey Lavrov jurnalistlərə açıqlamasında deyib. Lavrov vurğulayıb ki, İsrail öz məsuliyyətini dərk etməlidir. Nazir həmçinin əlavə edib ki, ABŞ Suriyanın şərqində separatizm meyllərini dəstəkləyir. Qeyd edək ki, bir müddət əvvəl Rusiya prezidenti Vladimir Putin Suriyadakı hadisələrdən əsas faydalanan tərəfin İsrail olduğunu bildirmişdi.

***Gülayə Mecid***

## NATO-dan təyyarə qəzası ilə bağlı çağırış

***NATO-nun sözçüsü Fərəh Daxlallah Azərbaycan təyyarəsinin qəzaya uğraması ilə bağlı başsağlığı verib***

"Unikal" xəbər verir ki, bu barədə o, "X" platformasındakı paylaşımda bildirilib.

"Fikirlərimiz və dualarımız Azərbaycan Hava Yolları J28243 təyyarəsinin qurbanları və onların ailələri ilədir. Qəzada xəsarət alanların tezliklə sağalmasını arzulayır və hərtərəfli araşdırmaya çağırırıq"- deyə paylaşımda qeyd edilib.

# Müxalifət Zurabişvilini prezident sarayını tərk etməməyə çağırıb

***"Gürcüstan müxalifəti dekabrın 29-da səlahiyyət müddəti başa çatan respublika prezidenti Salome Zurabişvilini dəstəklədiyini bildirib və onu bu müddətdən sonra iqamətgahı tərk etməməyə dəvət edib".***



"Unikal" xəbər verir ki, bunu "Güclü Gürcüstan" koalisiyasının lideri Anna Dolidze deyib. Onun sözlərinə görə, siyasi partiyalar Zurabişvili ilə danışıqlar aparır və yaxın vaxtlarda seçkilərin təşkili və onların hansı şəraitdə keçirilə biləcəyi ilə bağlı sənəd təqdim olunacaq.

"Əsas tələbimiz təbii ki, yeni seçkilər və siyasi məhbusların azad edilməsidir. Bundan əlavə, mən Gürcüstan Prezidentinə müstəqillik uğrunda mübarizəsində hərtərəfli dəstək təklif etdim. Biz dekabrın 29-dan sonra sarayda qalmağa və onu Gürcüstanın qanuni prezidentinin yerləşəcəyi yeganə yer elan etməyə hazırıq. Bu, legitim, ədalətli və qeyri-zorakı olacaq dəstək formasıdır", - Dolidze bildirib.

Müvafiq təşəbbüsü "Dəyişiklik üçün Koalisiya"nın lideri Nika Qvaramiya da dəstəkləyib.

Dekabrın 22-də Gürcüstanın baş naziri İrakli Kobaxidze Zurabişvilini dekabrın 29-da vəzifəsini tərk etməkdən imtina edəcəyi təqdirdə həbslə hədələyib. Xatırladaq ki, dekabrın 14-də Gürcüstanda yeni sistem üzrə prezident seçkiləri keçirilib. Prezident seçkilərinin qalibi isə Mixail Kavelaşvili olub.

***Gülayə Mecid***

# Rusiyanın ballistik raketlər üçün yanacaq istehsal edən zavodu vuruldu

***Ukrayna Hərbi Hava Qüvvələri Rostov vilayətində ballistik raketlər üçün yanacaq istehsal edən zavodu vurub.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Silahlı Qüvvələrinin Strateji Kommunikasiyalar Departamenti məlumat yayıb.

Qeyd edilib ki, Ukrayna Silahlı Qüvvələrinin Hərbi Hava Qüvvələri Rostov vilayətinin Kamiansk-Şaxtınski şəhərindəki hərbi sənaye kompleksinin obyektinə yüksək dəqiqliklə zərbə endirib: "Rusiya bu obyektdən ballistik raketlərə bərk yanacaq istehsal etmək üçün istifadə edib. İşğalçılar bu raketlərdən Ukraynada mülki infrastruktura, o cümlədən xəstəxanalara, yaşayış binalarına və elektrik stansiyalarına hücum etmək üçün istifadə edirlər".

***Ağarza Elçinoğlu***



# Kremldən təyyarə qəzası ilə bağlı açıqlama

***İstintaq başa çatana qədər "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) Bakı-Qroznı reysi ilə uçan təyyarənin Qazaxıstanın Aktau şəhərində qəzaya uğramasının səbəbləri barədə mülahizə yürütməyə ehtiyac yoxdur.***

"Unikal" xəbər verir ki, bu barədə Kremlin rəsmi nümayəndəsi Dmitri Peskov açıqlayıb.

O xatırladıb ki, Rusiya prezidenti Vladimir Putin bir gün əvvəl həlak



olanların yaxınlarına başsağlığı verib və təyyarə qəzasında xəsarət alanlara şəfa diləyib: "İstinilən insident ixtisaslaşmış aviasiya orqanları tərəfindən araşdırılmalıdır. Biz bu araşdırmanın başa çatmasını gözləməliyik. İlkin araşdırmanın nəticələrinə qədər hər hansı fərziyyələr irəli sürmək düzgün olmazdı və biz bunu, əlbəttə ki, edə bilmərik və heç kim etməməlidir".

***Ağarza Elçinoğlu***

# Rusiya ABŞ-yə səfir göndərib? - Zaxarova açıqladı

***Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Rusiyanın ABŞ-dəki yeni səfirinin Vaşinqtona getməsi ilə bağlı yayılan məlumatları saxta adlandırıb.***

"Unikal" xəbər verir ki, o, bu barədə TASS-a müsahibəsində bildirib.

Diplomat vurğulayıb ki, media Rusiya Federasiyasının ABŞ-dəki yeni səfiri Aleksandr Darçiyev Şimali Amerika departamentinin direktoru vəzifəsini davam etdirir və Moskvada iş başındadır.

"Saxtalara inanmayın", - deyə Zaxarova ifadə edib.

Qeyd edək ki, Anatoli Antonov bu ilin oktyabrında Rusiya prezidenti Vladimir Putinin fərmanı ilə Rusiyanın Vaşinqtondakı diplomatik missiyasının rəhbəri vəzifəsindən azad edilib.

***Gülayə Mecid***

# "Məlumatları gizlətməkdə maraqlı deyilik" - Aşımbayev

***Qazaxıstan Senatının (parlament - red.) sədri Maulen Aşımbayev Azərbaycan Hava Yollarına məxsus təyyarənin Aktauda qəzaya uğramasına münasibət bildirib.***

"Unikal" xəbər verir ki, bu barədə Qazaxıstan mətbuatı yazıb.

O qeyd edib ki, təyyarə qəzasının araşdırılmasına Qazaxıstan, Azərbaycan və Rusiyanın müvafiq strukturlarının nümayəndələri cəlb olunub: "Mütəxəssislərimiz bu ölkələrin nümayəndələri ilə birgə işləyirlər. Bir fotoşəkildən dərhal hər hansı bir nəticə çıxarmaq, bunun hansısa hərəkətlərin nəticəsi və sair adlandırmaq fərziyyədir. Bunlar əsassız ifadələrdir, bu cür qiymətləndirmənin yayılması yanlış və qeyri-etikdir. Bu, ilk növbədə, müəyyən insanların özləri üçün müəyyən dividendlər qazanmaq və özləri üçün nəsə, o cümlədən baxışlar əldə etmək istədiklərinin göstəricisidir. Komissiya, mütəxəssislər işləyir, ekspertlər hər şeyə baxır, nəticə çıxaracaqlar. Nə Azərbaycan, nə Rusiya, nə də Qazaxıstan məlumatları gizlətməkdə maraqlı deyil".

***Ağarza Elçinoğlu***

46_27 IYUI-QARA.qxd 12/26/2024 10:37 PM Page 16



# Daha bir klub "Qarabağ"ın futbolçusu ilə maraqlanır

***"Qarabağ"ın futbolçusu Redon Cica daha bir klubun maraq dairəsinə düşüb.***



"Unikal" xəbər verir ki, Albaniyanın "Eqnatiya" komandası 26 yaşlı hücumçunu heyətinə qatmaq istəyir.

Klub qış fasiləsində heyətini yeni oyunçularla gücləndirmək niyyətindədir. İddiaya görə, həmin futbolçulardan biri də məhz "Qarabağ"ın forvardıdır.

Daha əvvəl Albaniyanın digər təmsilçisi "Partizani"nin də təcrübəli futbolçu ilə maraqlandığı bildirilib.

Qeyd edək ki, Redon Cica "Qarabağ"a 2023-cü ilin yanvar ayında Albaniyanın "Tirana" klubundan keçib.

# "Kəpəz"in kapitanı: "Xəbəri eşidəndə şoka düşdüm"

***"Böyük faciədir, bu xəbəri eşidəndə şoka düşdüm. Qəzalardan heç kim sığortalanmayıb".***



QOL.az xəbər verir ki, bunu "Kəpəz"in kapitanı Yeqor Xvalko AZAL-ın təyyarəsinin Aktau yaxınlığında qəzaya uğraması ilə bağlı danışarkən klubun mətbuat xidmətinə açıqlamasında bildirib.

Belaruslu futbolçu hadisənin onun üçün də çox kədərli olduğunu deyib: "Hamımız insanıq, bir gün öncə özüm təyyarə ilə Bakıdan vətənə dönmüşəm. Hava nəqliyyatından istifadə etmişəm. Bu hadisə hər birimizin başına gələ bilər. İstəyimiz gələcəkdə belə qəzaların baş verməməsidir. Xoşbəxtlikdən digər sərnişin daşınma növləri ilə müqayisədə təyyarələrin qəzaya uğraması nadir haldı. Amma yenə də kədərlidi. İnsanlar həyatını itirirlər. Tez-tez təyyarədən yararlananan biri kimi deyə bilərəm ki, uçuşlar mənim üçün stressdir. Hadisə zamanı həlak olanların doğmalarına başsağlığı verirəm, yaralıların tezliklə ayağa qalxmasını arzulayıram".

27 yaşlı müdafiəçi qəza ilə bağlı sosial şəbəkədəki səhifəsində post paylaşıb, dəstəyini ifadə edib: "Hazırda əlimdən gələn budur, hamımız sağ qalanlar üçün dua edirik. Biz mənəvi dəstəyimizlə bu ağır hadisənin qurbanları olan insanların yaxınlarına, yaralılara kömək edə bilərik. Öyrənmişəm ki, həlak olanlar, yaralılar arasında bizim Gəncədən olanlar da var".

# Flik onu "Barselona"da görmək istəyir

***"Barselona" "Bavariya"nın yarımmüdafiəçisi Leon Qoretskanı transfer edə bilər.***

QOL.az xəbər veir ki, bu barədə "Diario Sport" nəşri məlumat yayıb.

Kataloniya klubunun baş məşqçisi Hans-Diter Flik 29 yaşlı yarımmüdafiəçini komandasında görmək istəyir. "Barselona" bu qış futbolçunu transfer edə bilər.

Almaniya millisinin üzvü bu mövsüm bütün turnirlər də daxil olmaqla 17 matçda iştirak edib, 2 qol vurub və 1 məhsuldar ötürmə verib. Onun "Bavariya" ilə müqaviləsi 2026-cı ilin yayına kimi nəzərdə tutulub.





# İngiltərə klubundan PSJ-yə

***Ukrayna millisinin və "Bornmut"un müdafiəçisi İlya Zabarnı karyerasını PSJ-də davam etdirməyə yaxındır.***

QOL.az xəbər verir ki, bu barədə Fransa mətbuatı məlumat yayıb.

PSJ 22 yaşlı ukraynalını transfer etməyə hazırlaşır. Ounun keçidinin yaxın bir neçə gün ərzində açıqlanacağı gözlənilir.

Qeyd edək ki, Zabarnı bu mövsüm İngiltərə Premyer Liqasında 17 oyun keçirib.

# Son 25 ilin ən parlaq 25 futbolçusu - Siyahı

***Nüfuzli Goal.com nəşri son 25 ilin ən parlaq futbolçularının siyahısını hazırlayıb.***

**Siyahıya 25 futbolçunun adı daxil edilib. "25-lik"də yer alan adları təqdim edirik:**

25. Kevin De Bruyne
24. Ueyn Runi
23. Poop
22. Kilian Mbappe
21. Paolo Maldini
20. İker Kasilyas
19. Kərim Benzema
18. Samuel Eto'O
17. Françesko Totti
16. Toni Kroos
15. Andrea Pirlo
14. Manuel Noyer
13. Robert Levandovski
12. Luis Suarez
11. Thierri Henri
10. Serxio Ramos
9. Canluici Buffon
8. Serxio Buskets
7. Luka Modriç
6. Ronaldinyo
5. Zinəddin Zidan
4. Andres İnyesta
3. Xavi
2. Kriştiano Ronaldo
1. Lionel Messi



# "Turan Tovuz" klubu cərimələndi

***AFFA İntizam Komitəsi "Turan Tovuz" klubunu cərimələyib.***

"Unikal" xəbər verir ki, bölgə təmsilçisi evdə "Neftçi" ilə heç-heçə etdikləri Misli Premyer Liqasının XVIII turunun oyununda dörd futbolçusu sarı vərəqə aldığı üçün ziyana düşüb.

Meydan sahibləri bu səbəbdən 700 manat ödəyəcək.

# Umtiti 31 yaşında karyerasını bitirir



***Fransa millisinin və "Barselona"nın sabiq futbolçusu Samuel Umtiti karyerasını bitirməyi düşünür.***

"Unikal" xəbər verir ki, bu barədə Sport.es məlumat yayıb. Müdafiəçinin 31 yaşında bu qərara gəlməsinə onun dizindəki xroniki zədə səbəb olub.

"Lill"in futolçusu fevral və avqsut ayında dizindən əməliyyat edilib və 2024-cü ildə cəmi 1 oyunda meydana çıxıb.

Qeyd edək ki ki, 2016-2023-cü illərdə "Barselona"da çıxış edən Umtiti "Lion" və "Leçce"də də oynayıb.

# Azərbaycan kubokunun finalı bu stadionda keçiriləcək

***2024/25 mövsümü futbol üzrə Azərbaycan kubokunun final matçının keçiriləcəyi stadion müəyyənləşib.***




"Unikal" xəbər verir ki,məlumatı Peşəkar Futbol Liqasının (PFL) prezidenti Elxan Səmədov da təsdiqləyib.

Görüşün Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda keçirilməsi nəzərdə tutulub. Matç iyunun 1-də keçiriləcək. "Əgər fors-major vəziyyət yaranmasa, biz Azərbaycan kubokunun finalını Sumqayıtda keçirməyi nəzərdə tuturuq" - deyə PFL prezidenti Elxan Səmədov bildirib (azerisport.com).

# "Liverpul"un qış planı bilindi

***"Liverpul" qış transfer pəncərəsi üçün planları məlum olub.***

QOL.az xəbər verir ki, bu barədə insayder Fabrizio Romano məlumat yayıb. Klub çox sayda futbolçu transfer etməyi planlaşdırmır. Hazırda Arne Slotun komandası Premyer Liqada liderdir. Buna görə də klub rəhbərliyi komandada ciddi dəyişikliklərə ehtiyac olmadığını düşünür. "Mersisaydlılar" hazırda yalnız bir futbolçu ilə ciddi şəkildə maraqlanırlar. Bu, "Lion"un hücumameyilli yarımmüdafiəçisi Rayan Çerkidir.

Qeyd edək ki, "Liverpul" Premyer Liqada 39 xala malikdir (16 matça) və 2-ci yerdəki "Çelsi"ni (7 oyun) 4 xal qabaqlayır.

"Liverpul" Çempionlar Liqasının Liqa mərhələsində maksimum nəticə göstərməyə davam edir. Komanda 18 xalla liderdir.